RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 268 (8584) BAZAR, 20 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev tarixi ədaləti dəmir yumruqla bərpa etdi

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə başa çatan İkinci Qarabağ müharibəsi müstəqillik və dövlətçilik tariximizin olduqca mühüm səhifələrindən biridir. 44 günlük müharibənin nəticəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz 30 ildən artıq idi ki, davam edən erməni işğalına birdəfəlik son qoydu, respublikamızın qanuni hüquqlarını bərpa etdi. Ermənistana həm də elə bir maddi və mənəvi ziyan vuruldu ki, indi bu ölkə tarixinin ən ağır və rüsvayçı günlərini yaşayır.

## Azərbaycan üçün bu, Vətən müharibəsi idi

Dekabrın 18-də keçirilən Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında Prezident İlham Əliyev respublikamızda pandemiyaya qarşı mübarizə sahəsində görülən işləri diqqətə çatdırmaqla yanaşı, Vətən savaşı barədə - müharibənin başlanmasının səbəbləri, Ermənistanın hərbi təxribatları, döyüşlərdəki işğalçı dövlətin vandallığı, kapitulyasiyası və digər məsələlər barədə ətraflı məlumat verdi.

Öncə onu qeyd edək ki, 44 günlük müharibədə Azərbaycan həm də informasiya cəbhəsində mübarizə apardı və qalib çıxdı. Respublikamız düşmənin saxta informasiya cəbhəsini darmadağın etdi. Ermənistana qarşı həm informasiya mübarizəsinin, həm düşmənin saxta təbliğatının qarşısının alınması, həm də Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması prosesinin önündə isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev getdi. Hərb meydanında olduğu kimi, informasiya məkanında da İlham Əliyev düşmənə sarsıdıcı zərbə vurdu.

Bu baxımdan Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclası əsl həqiqətlərin bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edirdi. Prezident İlham Əliyev bir daha baş verənlər barədə sistemli və ardıcıl şəkildə məlumatları diqqətə çatdırdı. Prezident İlham Əliyevin çıxışının əvvəlində qeyd etdiyi kimi bu, Azərbaycan üçün Vətən müharibəsi idi: *"Müharibənin nəticələri məlumdur. Azərbaycan uzun illər ərzində ölkəmizin xeyli ərazisini, beynəlxalq miqyasda tanınmış ərazilərini işğal altında saxlayan işğalçı ölkə üzərində qələbə qazandı. Bizim məlumatımıza görə, müharibə nəticəsində Ermənistan silahlı qüvvələrinin potensialının 80 faizindən çoxu məhv edilib. Azərbaycan üçün bu, Vətən müharibəsi, azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq, istilaçılıq müharibəsi idi".*

## Ermənistanın təxribatları danışıqları mənasız etdi

Yeni hərbi əməliyyatların başlaması birdən-birə baş vermədi. Xüsusən son bir ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ətrafında cərəyan edən proseslərin məntiqi yekunu Azərbaycanın hərbi yolla ərazilərini işğaldan təmizləməsinə gətirib çıxardı.

Rəsmi Bakı problemin danışıqlar yolu ilə həlli prosesindən heç vaxt yayınmadı və Prezident İlham Əliyev bu istiqamətdə daim konstruktiv mövqe nümayiş etdirdi.

Ardı 3-cü səh.

# 44 zəfər gününün qəhrəmanları



## Onlar vətən sevgilərinin şərəf mükafatına layiq görüldülər

Bu son baharın günəşi Odlar yurdumuzun əbədiyyət üfüqlərində bir daha sönməyəcək şəkildə parladı, şəfəq saçdı...

Bu xəzan fəsli qəhrəman oğullarımızın şücaətlərini Azərbaycanımızın gələcəkdə qürurla vərəqlənəcək tarix salnamələrinə zər işləmələrlə həkk etdi...

Bu qızıl payızda bütün Azərbaycan Vətən dedi...

Mərd övladlarımız ata-baba ocaqları Qarabağ uğrunda savaşmaq üçün müqəddəs bir yola çıxdılar. İgidlərimiz Vətənimizin hər daşı, qayası, torpağımızın hər qarışı üçün çarpışmağa, döyüşməyə, düşmənə qan uddurmağa tələsdilər...

Əslində bu müqəddəs ana doğru biz çoxdan, ta 30 ilin o tayından yol gəlirdik və işğalla heç zaman barışmırdıq...

Elə buna görə idi ki, Xocalının, Şuşanın, Laçının, Kəlbəcərin, Zəngilanın, Füzulinin, Cəbrayılın, Ağdamın, bütünlükdə Qarabağımızın işğal günlərini inadla yaddaşımıza həkk etmədik, o qara rəqəmlərlə təqvimlərə həkk olunmuş tarixləri tezliklə qırmızıya, zəfər gününə çevirəcəyimizə inandıq...

Heç zaman "Qarabağ Azərbaycandır!" haqq nidasından ayrılmadıq, müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsərək atacağımıza adımız kimi əmin olduq. Sülh yolu ilə mümkün olmasa, Qarabağımızın işğaldan azad edilməsinə, vətənimizin bütövlüyü uğrunda son damla qanımıza qədər vuruşaraq qalib gələcəyimizə and içdik. And içdik ki, üçrəngli Azərbaycan bayrağını Qarabağın ən hündür zirvələrində dalğalandıracağıq...

## İgidlərimiz düşməni diz çökdürməyənə qədər haqq savaşından əl çəkmədilər

2020-ci ilin 27 sentyabrında Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması səbrimizi daşıran son damla oldu. Elə həmin andan etibarən damarlarında qisas qanı coşan aslan pəncəli oğullarımız bir ağızdan Vətənin harayına hay verdilər.

Ardı 5-ci səh.

# İlham Əliyevdən diplomatiya dərsi

Prezident İlham Əliyevin bu il dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikini qəbul edərkən ibrətamiz çıxışı ilə Azərbaycan diplomatiyası tarixinə yeni bir şanlı səhifə yazdı.

Əlbəttə, Prezident 28 il Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə cəhdləri imitasiya edən bu qurumun təmsilçilərini qəbul etməyə və çağırılmayan qonaqları müvafiq nazirliyin rəhbərinin üstünə göndərə bilərdi. Amma əksinə, onları qəbul etdi, işğalçı Ermənistanın 30 ilə yaxın müddət ərzində törətdyi bütün cinayətləri sadaladı, səbir və təmkinlə baş verənlərdə işğalçı Ermənistanın və ona dayaq duran beynəlxalq qurumların günahkar olduğunu bildirdi. İlham Əliyev görüşün sonunda ən vacib məqama toxundu: "Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Belə qəbul diplomatik dildə Minsk üçlüyünün 28 illik fəaliyyətsizliyinə verilən konkret və lakonik qiymətdir. Yəni 28 il gəldiniz, əlinizi əlinizin üstünə qoyub oturdunuz, indi nə edəcəksiniz ki?!

Prezident çıxışının əvvəlində qonaqlara xatırlatdı ki, Minsk qrupu ilə bir il əvvəl baş tutan son görüşdən sonra ciddi dəyişikliklər baş vermiş, münaqişənin həlli yeni reallıqları gündəmə gətirmişdir: "Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm".

Ardı 2-ci səh.

# Yenə də dünyanın «Ən islahatçı on ölkə»si sırasındayıq

## Dünya Bankı Azərbaycanda iqtisadi islahatların uğurla aparıldığını təsdiqləmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin mətbuata açıqlamasında bildirilir ki, Doing Business hesabatındakı məlumat uyğunsuzluqları Dünya Bankının Daxili Auditi tərəfindən araşdırılmış və nəticədə Azərbaycan bu qurumun 2020-ci il hesabatındakı mövqeyini 6 pillə yaxşılaşdırmışdır.

Bu o deməkdir ki, ölkəmiz bir daha dünyanın "Ən islahatçı on ölkə"si sırasında ötənilki yerini tutmuşdur. Ağır müharibəni Zəfər qələbəsi ilə başa vuran Azərbaycanın adının iqtisadi islahatların aparılmasında aparıcı dövlətlərlə bir sırada çəkilməsi qürur doğuran məqamdır.

Yeri gəlmişkən, işğalçı Ermənistan davamlı olaraq bu qurumun hesabatlarında inadla geriyə çəkilməkdədir. Qonşuları ilə əbədi ədavətdə yaşayan və ərazi iddialarından əl çəkə bilməyən faşist dövlətinin çökməsi labüddür.

Azərbaycan uzun illər müharibə şəraitində olmasına baxmayaraq, regionda sülhə və islahatlara səmtlənən dövlət kimi daim göstəricilərini bütün istiqamətlərdə yaxşılaşdırmaqdadır. Dünya Bankının Daxili Audit strukturları tərəfindən son 4 ilin məlumatları araşdırıldıqdan sonra ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənmişdir.

Ardı 5-ci səh.

**Martın 11-də Ümumdünya Səhiyyə Təşkilatının pandemiya elan etdiyi koronavirus sürətlə Yer üzündə yayılmaqda davam edir. Aparılan son statikstikaya əsasən, indiyədək dünyada 76 milyondan çox insan COVID-19-a yoluxub, 1 milyon yarımdan çox insan bu təhlükəli virusdan həyatını itirib. Yoluxmanın 45 faizdən çoxu Şimali və Cənubi Amerikanın payına düşür, digər yerləri isə Avropa, cənub-şərqi Asiya bölüşür.**



# Azərbaycan pandemiyaya qarşı qlobal mübarizəyə mühüm töhfə verir

## İlham Əliyevin liderlik missiyası koronavirusa qarşı birgə beynəlxalq həmrəyliyi də təşviq edir

Hazırda COVID-19 xəstəliyinin sürətlə yayılması, yoluxan və vəfat edən şəxslərin sayında kəskin artımın baş verməsi bütün dünya üçün ən ciddi problem olaraq qalmaqdadır. Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, xəstəliyin qarşısını almaq üçün hökumətlər sərt məhdudiyyətlər tətbiq etmək məcburiyyətində qalırlar. Bu, iqtisadi duruma, əhalinin maddi vəziyyətinə mənfi təsir göstərsə də, insanların həyatının və təhlükəsizliyinin qorunması üçün sərtləşdirilmə istiqamətində addımlar atılır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da COVID-19-a yoluxma hallarında əvvəlki aylarla müqayisədə artım müşahidə olunmaqdadır. Buna görə də ölkəmizdə son aylarda yaşanan yüksək yoluxma səviyyəsi nəzərə alınaraq virusun yayılmasının qarşısının alınması məqsədilə bir sıra addımlar atılıb, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən dekabrın 14-dən gələn il yanvarın 18-dək sərtləşdirilmiş karantin tədbirlərinin tətbiqinə başlanılıb.

Ardı 5-ci səh.

# Erməni diasporu Paşinyandan ianələrin hesabatını tələb edir

Müharibədəki məğlubiyyətdən sonra Ermənistanda baş verən qarşıdurma ölkədə gərgin və xaotik vəziyyət yaradıb. Müxalifət Paşinyanın baş nazir kimi ölkə idarəçiliyini davam etdirməsinə qarşı çıxaraq bir aydan çoxdur aksiyalar keçirir. Kürsüsünü itirmək istəməyən Nikol Paşinyan isə kütləvi etirazların qarşısını almaq üçün bütün repressiv tədbirlərə əl atır.

Bu günlərdə Yerevanda mitinqlər fasiləsiz davam edir. Etiraz aksiyaları iştirakçıların sayı və miqyası baxımından genişlənməkdədir. Şəhərin "Fransa" meydanında keçirilən mitinqdə "Vahid Ermənistan" partiyasının lideri Artur Kazinyan prokurorluqdan Paşinyana qarşı "dövləti xəyanətlərinə görə" cinayət təqibi başlanılmasını tələb edib. "Daşnaksütyun" partiyasının nümayəndəsi Geqam Manukyan isə aksiyanı başa çatdıraraq bildirib ki, dekabrın 22-də Yerevanın Respublika meydanında ümumi tətil və böyük etiraz aksiyası keçiriləcək.

Belə vəziyyətlə bağlı Paşinyan hakimiyyətini saxlamaq üçün bütün repressiv addımları atacaq və ölkədə gərginlik daha da kəslinləşəcək. Bu isə bütövlükdə ölkənin çətin durumunu daha da ağırlaşdıracaq. Ermənistanda sadə vətəndaşların qorxduğu da məhz budur. Ona görə ölkədə hakimiyyətlə xalq arasında uçurumun daha da dərinləşməsi gözlənilir. Bu isə Ermənistanı vətəndaş qarşıdurmasına sürükləyəcək.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin strukturu"nda, "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 47; 2017, № 2, maddə 197; 2018, № 1, maddələr 35, 52, № 5, maddə 964; 2020, № 6, maddə 716) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin strukturu"nda, "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 415) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bəndə "qol və yaxa nişanları," sözlərindən sonra "döş nişanı," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 6.8-1-ci bənd əlavə edilsin:

"6.8-1. Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin xidmət etdiyi gömrük orqanını (qurumunu) müəyyənləşdirməyə imkan verən fərqlənmə döş nişanı bu Əsasnamənin 1.9-cu bəndində nəzərdə tutulmuş qaydalara uyğun olaraq daşınır. Döş nişanı metal lövhədən hazırlanır. Uzunluğu 6 santimetr, eni 5 santimetr olmaqla, aşağı hissəsi ovalşəkillidir. Kənarları qızılı rəngli xətlə haşiyələnmişdir. Yuxarı hissə tünd göy rəngdədir və həmin hissədə qızılı rəngli fon üzərində ağ rənglə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin şəxsi qeydiyyat nömrəsi, sağ və sol kənarlarında isə qızılı rəngli sünbül təsviri həkk olunmuşdur. Döş nişanının orta sağ və sol kənarları tünd qırmızı rəngdədir, hər iki kənarda qızılı rəngli səkkizguşəli ulduz təsviri həkk olunmuşdur. Döş nişanının ovalşəkilli aşağı hissəsi tünd yaşıl rəngdədir və üzərində qızılı rəngli hərflərlə "Dövlət Gömrük Komitəsi" sözləri yazılmışdır. Orta (mərkəzi) hissədə Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının və Azərbaycan Respublikası gömrük orqanlarının embleminin təsviri həkk olunmuşdur. Nişanın yuxarı, orta və aşağı hissələrini bir-birindən qızılı rəngli haşiyələr ayırır. Metal lövhə qara rəngli süni dəridən hazırlanmış altlığa bərkidilmişdir. Nişanın bərkidildiyi qara rəngli süni dəri altlığın yuxarı hissəsinin ortasında geyim formasına bərkidilmək üçün nəzərdə tutulan düymə dəliyi vardır (Şəkil 67-1).".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2020-ci il*




Şəkil 67-1. Döş nişanının təsviri

## Brüsseldə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 17-ci iclası keçirilib

Dekabrın 18-də Brüsseldə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 17-ci iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti, Aİ isə xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndə Cozef Borelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Aİ nümayəndə heyətinin tərkibində həmçinin Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi də iştirak edib.



İclasda tərəflər Əməkdaşlıq Şurasının son iclasından etibarən Aİ və Azərbaycan arasındakı əməkdaşlıq münasibətləri və bu xüsusda əldə olunmuş nailiyyətlər ətrafında fikir mübadiləsi aparıblar.

Cari ildə pandemiyaya rəğmən ticarət əlaqələrinin inkişaf etdiyi və Aİ-nin Azərbaycanın əsas ticarət tərəfdaşı olduğu qeyd olunub. Tərəflərin enerji sahəsində strateji tərəfdaşlığı, "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması, eləcə də nəqliyyat və bağlılıq layihələri, Azərbaycanın bu xüsusda böyük potensialı, sərmayə yatırımı və digər mövzular üzrə müzakirələr aparılıb.

Azərbaycan və Aİ münasibətlərinin hüquqi əsasını təşkil edəcək, qarşılıqlı hörmət və bərabər tərəfdaşlığa əsaslanacaq yeni sazişin yekunlaşdırılmasının əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov regiondakı son vəziyyət barədə qarşı tərəfə ətraflı məlumat verib. Ermənistan tərəfindən cari ilin 27 sentyabr tarixində başladılan növbəti təxribat və ona cavab olaraq Azərbaycanın əks-hücum əməliyyatları, 44 gün davam edən Vətən müharibəsi, eləcə də bu müddət ərzində Ermənistan tərəfindən törədilən hərbi cinayətlər, dinc azərbaycanlı əhalinin məqsədli hədəfə alınması, Ermənistan tərəfindən xarici ölkələrdən muzdluların bölgəyə gətirilməsi ilə bağlı çoxsaylı faktların Azərbaycan tərəfində olması ilə bağlı məsələlər qarşı tərəfin diqqətinə çatdırılıb. 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanat, bu razılaşmadan irəli gələn məsələlərin icrası, razılaşmanın bölgədə yaratdığı yeni təhlükəsizlik formatı və əməkdaşlıq çərçivəsi ilə bağlı məsələlər Aİ nümayəndə heyətinin diqqətinə çatdırılıb.

Ali nümayəndə Cozef Borel hazırda bölgədə ehtiyacı olan insanlara humanitar yardımın göstərilməsinin vacibliyini və bu xüsusda Aİ-nin yardım göstərməyə hazırlığını qeyd edib. Münaqişə sonrası bərpa və yenidənqurma mərhələsində aidiyyəti üzrə Aİ-nin də iştirakı mümkünlüyü vurğulanıb.

İclas zamanı tərəflər, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi aparıblar.

## Azərbaycan XİN Belçika parlamenti tərəfindən qəbul edilmiş qətnaməyə münasibət bildirib

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Belçika parlamenti tərəfindən qəbul olunmuş, Azərbaycana, eləcə də qardaş Türkiyəyə qarşı bəzi əsassız iddiaları əks etdirən qətnamə ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Belçika Federal Parlamentinin Nümayəndələr Palatasının plenar sessiyası zamanı "Dağlıq Qarabağ münaqişəsinin davamlı həlli və atəşkəsin əldə olunması üçün Belçikanın və beynəlxalq qurumların təşəbbüslərinə dəstək" adlı qətnamə layihəsi qəbul edilib. Məlumat verdiyimiz kimi, Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasında iştirak etmək məqsədilə Belçika Krallığına işgüzar səfər edən xarici işlər naziri Ceyhun Bayramov səfər çərçivəsində Belçika Krallığının Baş nazirinin müavini-xarici işlər, Avropa məsələləri, xarici ticarət və federal mədəniyyət institutları üzrə naziri Sofi Vilmes ilə görüşüb. Görüş zamanı nazir Ceyhun Bayramov Belçika parlamenti tərəfindən Azərbaycana, eləcə də qardaş Türkiyəyə qarşı əsassız və qərəzli iddiaları əks etdirən qətnamənin qəbul edilməsi ilə bağlı etiraz və narazılığımızı Belçika rəsmisinin diqqətinə çatdırıb. Sənəddə Belçika hökumətinin izahı nəticəsində beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT TŞ-nin 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrə istinadın əks olunmasına rəğmən, burada həqiqəti əks etdirməyən qərəzli fikirlərin yer almasının qəbuledilməz olduğu bildirilib. Vurğulamaq istərdik ki, Belçikanın Baş nazirinin müavini-xarici işlər, Avropa məsələləri, xarici ticarət və federal mədəniyyət institutları üzrə naziri ölkəsinin rəsmi mövqeyini xatırladaraq Belçika tərəfindən dövlətlərarası münasibətlərdə hər zaman beynəlxalq hüququn normalarının rəhbər tutulduğunu qeyd edib".

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 942) ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü bəndə "sisteminə" sözündən sonra "(EKTİS)" abreviaturası əlavə edilsin.

2. Aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| **8. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və deqradasiyasına, səhralaşmasına qarşı mübarizə** | | | |
| 8.1. | Meliorativ vəziyyətinin yaxşılaşdırılması həyata keçirilən suvarılan torpaq sahələrinin xəritələşdirilməsi, məlumat bazasının formalaşdırılması, EKTİS-ə inteqrasiyası, mütəmadi monitorinqinin təşkili, yaxşılaşdırma tədbirlərinin effektivliyinin yoxlanılması və dayanıqlı inkişaf təcrübəsi metodlarının torpaq istifadəçilərinə öyrədilməsi | "Azmelsutəsərrüfat" ASC, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərkosmos" ASC, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2020-2022 |
| 8.2. | Suvarılan torpaqların deqradasiyasına (şorlaşma, şorakətləşmə, eroziya, bataqlıqlaşma və s.) qarşı mübarizə məqsədilə yaxşılaşdırma tədbirlərinin həyata keçirilməsi | "Azmelsutəsərrüfat" ASC, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərkosmos" ASC | mütəmadi |
| 8.3. | İqlim dəyişikliyinə həssas, səhralaşma əlamətləri müşahidə olunan riskli ərazilərin müəyyən edilərək məlumat bazasının yaradılması, xəritələşdirilməsi və EKTİS-ə inteqrasiyası | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, "Azmelsutəsərrüfat" ASC, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərkosmos" ASC, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2020-2022 |
| 8.4. | Səhralaşma prosesinin qarşısının alınması məqsədilə tədbirlərin (meliorasiya və irriqasiya sistemlərinin qurulması, adaptasiya olunan bitki növlərinə üstünlük və əkin subsidiyası verilməsi, innovativ həllərin tətbiqi və s.) həyata keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, "Azmelsutəsərrüfat" ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | mütəmadi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2020-ci il*

# İlham Əliyevdən diplomatiya dərsi

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı elə çıxışının əvvəlində təəssüf hissi ilə Minsk qrupunun münaqişənin həllində heç bir rol oynamadığını, Azərbaycanın döyüş meydanında qalib gələrək Ermənistanı işğalçı dövlət kimi məğlubiyyətini təsdiq edən kapitulyasiya sənədini - üçtərəfli razılaşmanı imzalamağa məcbur etdiyini dedi.

Minsk üçlüyünü təmsil edən dövlətlər demokrat qiyafəsində hakimiyyətə gələn Paşinyanın göz qırpımında faşist ideologiyası ilə silahlanmasına, onun azğın və təxribatçı hərəkətlərinə, sərsəm bəyanatlarına, Qarabağa nasist lideri kimi səfərlər etməsinə reaksiya verə, bunun beynəlxalq hüquqla uzlaşmadığını deyə bilərdilər. Lakin təəssüf ki, bütün Ermənistan dövlətini vəba kimi cənginə alan erməni faşizmini görmək istəyənlər tapılmadı. Əksinə, 44 günlük müharibə ərzində Paşinyanın zəng etdiyi liderlərin və digər beynəlxalq qurumların təmsilçiləri işğalçı dövlətə yerini göstərmək əvəzinə Azərbaycana təsir göstərməyə çalışdılar.

Azərbaycan Prezidenti 44 günlük müharibədə dəfələrlə Ermənistanı sülhə çağırdı, başa saldı ki, işğalçı dövlət müharibəni dayandırmalı, əraziləri tərk etməli, nahaq qırğınlara yol verməməlidir. Lakin faşizmin əsarətinə düşən ermənilər özlərini hamıdan üstün mifik ali irq saydıqlarına, qələbəyə sahib çıxacaqlarına əmin olduqlarına görə sülhə imza atmağı ağıllarına belə gətirmədilər. Ermənistan başqalarının aqibətinə yazmaq istədiyi məğlubiyyətin uçurumlarına özü yıxıldı. Lakin Azərbaycan bu müharibədə sona qədər özünü ləyaqətlə apardı, müharibənin bütün qaydalarına, beynəlxalq hüququn müddəalarına əməl etdi, dinc əhaliyə qarşı silah çevirmədi, Kəlbəcərdə boşaldılmalı əraziləri tərk edənlərə əlavə vaxt da verdi. Baxmayaraq ki, erməni silahlı quldur dəstələri birinci Qarabağ müharibəsində Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara amansız divan tutmuş, dinc əhalini qətlə yetirmiz, işğal etdiyi ərazilərdə uşaqlara, qadınlara və qocalara belə, rəhm etməmişlər. Bu davranış yalnız Kəlbəcərdə yox, bütün işğal edilmiş ərazilərdə xüsusi qəddarlıqla nümayiş etdirilmişdi. İndi isə işğal olunan yaşayış məskənlərində qeyri-qanuni məskunlaşan ermənilər tikmədiyi evləri yandırdılar, hər şeyi dağıtdılar, meşələri qırıb od vurdular, su elektrik stansiyalarını sıradan çıxardılar.

Dövlət başçısı qəbulda ermənilərin 28 il ərzində törətdikləri bütün vəhşilikləri detallarınadək sadalamaqla yanaşı, buna siyasi qiymət də verdi. Prezident çıxışı ilə həm də Minsk üçlüyünün və digər beynəlxalq qurumların fəaliyyətsiz mövqeyinin hansı faciələrə səbəb olmasını aydın izah etdi. Əgər beynəlxalq qurumlar və böyük güclər 28 il əvvəl ədalətli mövqe sərgiləsəydi, işğalçı dövlətin maraqlarını müdafiə etməsəydi bundan hamıdan çox Ermənistan fayda görə bilərdi. Belə ki, savaşa can atan işğalçı dövlətin 10 mindən yuxarı əsgəri məhv oldu. Hələ də 10 minlərlə yaralını müalicə etməyə imkanı çatmır. Nəhayət, ordusu darmadağın edildi və işğal altında saxladıqları torpaqlardan it kimi qovuldu. Təəssüf ki, kimsə ona bu uzun illər ərzində faşizm ideyaları ilə yoluxmağın nə dərəcədə təhlükəli olduğunu demədi, heç bir dövlət erməni nasistlərinə ucaldılan abidələrin sökülməsini tələb etmədi. Əksinə, ermənilər bəziləri tərəfindən dəstəkləndi.

Dövlət başçısı çıxışında işğal edilmiş ərazilərdə ağlasığmaz vəhşiliklərin törədildiyini, hər şeyin yerlə yeksan edildiyini, hətta bircə salamat binanın qalmadığını qeyd etdi: "Mən Azərbaycan xalqı ilə açıq və səmimi olduğum kimi, sizinlə də eyni dərəcədə açıq və səmimi danışmaq istəyirəm. Bütün bu 44 gün ərzində mən xalqa yalnız həqiqəti söyləyirdim. Paşinyan isə həm xalqına, həm də gündə bir neçə dəfə zəng etdiyi tərəfdaşlarına yalan danışırdı. O, bu gün də yalan danışmağa davam edir".

Prezident İlham Əliyev müharibə zamanı beynəlxalq mediaya verdiyi çoxsaylı müsahibələrində olduğu kimi bu görüşdə də qeyd etdi ki, Azərbaycan erməni xalqı ilə yox, ərazilərimizi işğal edən cinayətkarlarla döyüşür. Bu gün Azərbaycanda minlərlə erməninin yaşadığı kimi Qarabağ erməniləri də öz evlərində təhlükəsizlikdə və əmin-amanlıqla yaşaya bilərlər: "Biz müharibədən sonra ermənilərin əvvəl yaşadıqları kəndlərin vəziyyətini görürük. Orada səfalət hökm sürüb. İnsanlar oralarda inanılmaz şəraitdə yaşayıblar. Bəs bu işğalın məqsədi nə idi? Nə üçün ermənilər öz xalqının nümayəndələrini uzun illər ərzində orada qul kimi saxlayırdılar? Bilmirəm, görmüsünüz, yoxsa yox, müharibənin ilk günlərində Azərbaycan Ordusu Ermənistan ordusunun səngərlərinə daxil olanda, orada məhv edilmiş işğalçıların bəzilərinin bir-birinə zəncirləndiyinin şahidi oldu. Bu, şokedici videolar idi. Yəni, onlar insanları səngərdə durmağa məcbur edirdilər. Qaçmaq, mövqelərini tərk etmək istəyənlərin qarşısı belə alınırdı".

Gəncənin ballistik raketlə atəşə tutulması, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla bombardman edilməsi, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırılma ağır hərbi cinayətlər olsa da, erməni vandalları bu barədə fəxrlə danışırdılar. Sarkisyan və Köçəryan, son zamanlar isə Paşinyan da bütün beynəlxalq tədbirlərdə cinayətkar olduqlarını unudaraq, əlbəyaxa döyüşlərdən qalib çıxan antik Roma sərkərdələri kimi poza verirdilər.

Azərbaycan Prezidenti çıxışında bir daha Sarkisyan və Köçəryan ordusunun məğlub edildiyini və 30 il ərzində törədilən hərbi cinayətlərin araşdırıldığını, bu məqsədlə beynəlxalq tərəfdaşların da dəvət edildiyini vurğulayaraq bir daha diplomatlara üzünü tutdu: "Eyni zamanda, Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfər etmişlər və Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olmuşlar. Şəhərlərimizin tam dağıdılmasının şahidi olmuşlar. Söhbət yalnız Ağdam və Füzulidən getmir, Cəbrayıl da eyni vəziyyətdədir. Kəlbəcər və Laçında onlar bəzi evlərdən yalnız məskunlaşmaq üçün istifadə edirdilər. Qubadlı ilə Zəngilanda onlar suriyalı erməniləri yerləşdirməyi planlaşdırırdılar və onlardan muzdlular kimi istifadə edirdilər. Əlimizdə ermənilərin istifadə etdiyi muzdlular barədə saysız-hesabsız faktlar var".

Azərbaycan Prezidenti BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişənin niyə həll olunmadığını bir sual kimi ortaya qoydu: "BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır".

İlham Əliyev münaqişənin hərbi həllinin olmasını israrla inkar edən nüfuzlu beynəlxalq qurumların, yüksək rütbəli rəsmilərin də anlaşılmayan mövqeyinə toxunaraq bildirdi ki, onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər.

Məsələnin hərbi həlli Ermənistanı kapitulyasiya aktına imza atmağa vadar etdi: "Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu, reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı".

Ermənistan dövlətini ağılsız və düşünülməmiş işğalçılıq ambisiyaları məğlubiyyətə apardı. Bu gün Yerevanda və bütün dünyada erməni alimləri, politoloqları və hərbi ekspertləri biabırçı məğlubiyyətin səbəblərini araşdırırlar. Lakin onlardan heç kimin ağlına gəlmir ki, məğlubiyyətin başlıca iki səbəbi mövcuddur: ermənilərə heç bir dəxli və aidiyyəti olmayan böyük Ermənistan ideyası və bu ölkədə 100 ildən artıqdır kök salan faşist ideologiyasının bütün ermənilərin beyninə yeridilməsi.

Xilas yolu sadədir. Ermənistan faşist ideologiyası ilə yoluxduğunu dərk etməlidir. Erməni diasporunun aqressiv fəaliyyətinə son qoyulmalıdır.

Azərbaycan üçün isə müharibə arxada qalan mərhələdir. Dövlət başçısı regionun gələcəyini düşünür, işğal edilmiş əraziləri canlandırmaq üçün konkret addımlar atır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Əvvəli 1-ci səh.

# İlham Əliyev tarixi ədaləti dəmir yumruqla bərpa etdi



Lakin Ermənistan rəhbərliyinin yürütdüyü siyasət danışıqların aparılmasını tamamilə mənasızlaşdırdı. Belə ki, hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verən, formatın dəyişdirilməsindən, danışıqlara separatçı rejimin cəlb olunmasından dəm vuran Ermənistanın baş naziri Nikol Paşinyan daha sonra tarixin ironiyası nəticəsində tutduğu vəzifənin eyforiyasından ruhlanaraq regional siyasətdə köklü dəyişikliklər etmək eşqinə düşdü. Xüsusən hakimiyyətə gəldikdən bir il sonra onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət ümumiyyətdə danışıqların mahiyyətinə və məzmununa uyğun deyil. "Qarabağ Ermənistandır" bəyanatı, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi addımlar göstərdi ki, Ermənistanla danışıqlar tamamilə mənasızdır.

O cümlədən işğal olunmuş Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşdırılma aparılması, qədim Azərbaycan şəhəri olan Şuşada separatçı rejimin başçısının qondarma inauqurasiyasının keçirilməsi və separatçı rejimin parlamentinin Xankəndidən Şuşaya köçürülməsi iddiası xalqımızın milli heysiyyatına toxunan təxribatçılıq əməlləri idi.

Bu ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatı, avqust ayında isə Goranboydakı diversiya-kəşfiyyat təxribatı təsdiqlədi ki, Ermənistan problemin həllində bütün konstruktiv yanaşmalardan uzaqdır. Üstəlik, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləməsi Ermənistanın yeni işğalçılıq niyyətlərindən xəbər verirdi. Beləliklə, Ermənistanın təxribatları yeni müharibəni qaçılmaz etdi.

## 44 gündən sonra düşmən kapitulyasiya etdi

Prezident İlham Əliyev bütün bunlar barədə öz çıxışında ətraflı, təfsilatı ilə danışdı. Dövlət başçısının bildirdiyi kimi, Ermənistan rəhbərliyinin hərəkətləri və addımları vəziyyəti kəskinləşdirməyə, Azərbaycan tərəfini cavab tədbirləri görməyə təhrik etməyə və danışıqlar prosesini pozmağa yönəlmişdi ki, sonradan desinlər, görürsünüzmü, yenidən hərbi toqquşmalar baş verir, buna görə yenə hər şeyi uzatmaq lazımdır.

Sentyabrın 27-də növbəti dəfə hərbi təxribat törədən Ermənistan ordusu ağır artilleriyadan istifadə etməklə Tərtər, Ağdam, Füzuli rayonlarının yaşayış məntəqələrinə hücum etdi. Elə ilk saatlarda Azərbaycanın dinc əhalisi və hərbi qulluqçuları arasında həyatını itirənlər oldu. Azərbaycanın səbir kasasını daşdıran bu təxribatlardan sonra ordumuz əks-hücum əməliyyatına başladı. Qısa müddətdə işğal olunmuş rayonlarımızın, şəhər və kəndlərimizin böyük bir qismi döyüş yolu ilə azad olundu. Qarabağın mirvarisi Şuşanın azad olunmasından sonra Ermənistanın öz məğlubiyyətini etiraf etməkdən başqa yolu qalmadı.

MDB Dövlət Başçıları Şurasının iclasında bu barədə danışan İlham Əliyev dedi: *"Sentyabrın 27-də, ermənilərin xaincəsinə hücumundan sonra mən Ali Baş Komandan kimi "İrəli!" əmrini verdim. Biz öz xalqımızı, öz ölkəmizi müdafiə etməli idik. Bizim əməliyyatlar nəticəsində 44 gündən sonra düşmən kapitulyasiya etdi. Bu müddət ərzində biz 300-dən artıq yaşayış məntəqəsini, strateji yüksəklikləri, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələrini, Xocavənd rayonunun bir hissəsini, Murovdağ dağ silsiləsini, həmçinin Laçın, Kəlbəcər rayonlarının bir hissəsini azad etdik. Noyabrın 8-də isə əlbəyaxa döyüşdə Qafqazın incisi və Azərbaycan xalqının qəlbi hesab edilən qədim Şuşa şəhəri erməni işğalından azad olundu. Bununla da, əslində, hərbi əməliyyatlara son qoyuldu, çünki Şuşa şəhərinin alınmasından və azad edilməsindən sonra erməni ordusunun hər hansı müqaviməti tamamilə mənasız idi".*

## Azərbaycan yalnız işğalçı deyil, həm də vandal düşmənlə üz-üzə idi

İşğaldan azad olunmuş Azərbaycan ərazilərindəki vəziyyət başqa bir həqiqəti də ortaya qoydu. Bir daha sübut olundu ki, Ermənistan yalnız işğalçı və terrorçu deyil, həm də vandal dövlətdir. 27 illik işğaldan sonra azad edilən Ağdamda, Füzulidə, Cəbrayılda ortaya çıxan mənzərə başqa cür düşünməyə əsas vermir.

Ağdamda yalnız qismən dağıdılmış bir məscid qalıb ki, onu da, sadəcə, həmin ərazidə döyüşlər baş verərsə artilleriya hücumunun dəqiq oriyentirlərini verə bilmək üçün saxlayıblar. Bu barədə danışan Prezident İlham Əliyev bütün bunların hərbi cinayət olduğunu bəyan etdi: *"Keçmiş Ağdam şəhərində, ondan qalan ərazidə səfərdə olmuş xarici jurnalistlər onu Qafqazın "Xirosima"sı adlandırırlar. Mən hesab edirəm ki, bu, Xirosimadan da pisdir. Ona görə ki, Xirosima nüvə faciəsi, atom zərbəsi idi. Lakin oradan vandallar və barbarlar dəstəsi keçməmişdi. Bizə gəldikdə isə Ağdam şəhəri işğal ediləndən sonra dağıdılıb. Füzuli şəhəri də onun kimi məqsədyönlü şəkildə dağıdılıb. Biz onu azad edəndə mən şəhərdəki evlərin birinin üzərində Azərbaycan bayrağı qaldırılmasını əmr edəndə dedilər ki, belə bina yoxdur, minlərlə, on minlərlə insanın yaşadığı böyük şəhərdə bircə bina da qalmayıb. Hamısı yerlə yeksan edilib. Bu, hərbi cinayətdir. Təkcə şəhərlər deyil, bütün kəndlər də yerlə yeksan edilib. Bu, elə bir vəziyyətdir ki, dünya bəlkə də son yüzilliklərdə belə vəziyyət görməyib. Eyni sözlər Cəbrayıl şəhərinə də aiddir. O da artıq yoxdur".*

Qələbədən sonra qarşıda duran əsas vəzifələrdən biri işğal dövründə Ermənistanın Azərbaycana vurduğu zərərin hesablanması və işğalçı barədə beynəlxalq hüququn tələblərinə uyğun ölçü götürülməsidir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətinlik yaradıb. İndi isə ərazilərimiz işğaldan azad edilib. İşğal dövründə Azərbaycana vurulan ziyan hesablanacaq və Ermənistana qarşı təzminat davası açılacaq. O cümlədən Kəlbəcəri yandıran, meşələri qıran düşmən onun da cavabını verəcək.

Artıq müharibə başa çatıb. Ermənistan noyabrın 10-da İlham Əliyevin şərtləri əsasında kapitulyasiya edib. Bölgədə yeni reallıq yaranıb və bəzi xarici siyasi dairələrin üçtərəfli bəyanata kölgə salmaq cəhdləri isə tamamilə mənasız və əhəmiyyətsizdir. Ermənistanı diz çökdürən müharibənin qalibi Azərbaycan işğaldan azad olunmuş bütün şəhər və rayonlarını, kənd və qəsəbələrini yenidən quracaq. Ermənistan isə tarixi boyu Azərbaycanın dəmir yumruğunun ağrısını hiss edəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Dövlət başçısının vətəndaşlara qayğısının təzahürü

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 6 noyabr 2020-ci tarixli sərəncam insanlara göstərilən qayğının ifadəsidir. Sərəncama əsasən yaradılmış 11 işçi qrupuna 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o, cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.



Baş nazirin rəhbərliyi ilə fəaliyyət göstərən komissiya vacib məsələlərin və qarşıya qoyulan vəzifələrin operativ həlli üçün lazımi tədbirlər görmək səlahiyyətindədir.

Sərəncamla əlaqədar vahid məlumat bazasının formalaşdırılması işlərin səmərəli həyata keçirilməsini təmin edəcəkdir. Dövlət rəhbəri tərəfindən 14 dekabr 2020-ci ildə ilkin mərhələdə zərərçəkmiş mülki əhalinin zəruri sosial ehtiyaclarının təmin edilməsi və onların məişət və şəxsi əşyalarına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı daha bir sərəncam imzalamışdır ki, bu da təcavüz nəticəsində dağılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardım ayrılmasını nəzərdə tutur.

Hər birimizə yaxşı məlumdur ki, 44 günlük müharibə dövründə erməni təcavüzkarları insanlığa yad olan, heç bir norma və əxlaqa sığmayan vasitələrə əl atmış, xalqımıza qarşı növbəti vəhşiliklər törətmiş, cəbhə xəttindən, döyüşlər gedən ərazilərdən çox-çox uzaqlarda yerləşən şəhər və kəndləri, yaşayış obyektlərini, mülki əhalini qadağan olunmuş silahlarla, ballistik raketlərlə, toplarla atəşə tutmuş, 100-ə yaxın dinc sakin həlak olmuş, dörd yüzdən çox mülki vətəndaş yaralanmış, minlərlə binalar dağılmış, infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir.

Kənd təsərrüfatı sahələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə, iş adamlarına, məişət əşyalarına dəymiş ziyanın həcmi hesaba gəlməzdir. Atəş altında olan min hektarlarla sahənin məhsulunu - pambığını, tərəvəzini, meyvəsini vaxtında yığmağa, təhvil verməyə düşmən imkan verməmişdir. Minlərlə mal-qara, ev quşları məhv edilmişdir. Əkin sahələrinə, otlaqlara, zəmilərə, kollektor-drenaj şəbəkələrinə, su hövzələrinə, elektrik şəbəkələrinə, yollara, körpülərə dəyən ziyanın məbləği yüz milyonlarla manat həcmindədir.

Erməni təcavüzü nəticəsində ölkəyə dəymiş ümumi ziyanın miqdarı yüz milyarddan çoxdur və sözsüz ki, dövlət başçısının qeyd etdiyi kimi, bu vəhşiliklərin cavabı düşməndən soruşulacaq və onlar etdiklərinə, törətdikləri cinayətlərə görə cavab verməli olacaqlar.

Ancaq dövlət başçısı bu günün reallıqlarından çıxış edərək daha vacib olan və vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşmasına kömək edə biləcək məsələləri gündəmə gətirir, müharibədən əziyyət çəkən insanların həyatının normallaşmasına çalışır. Azərbaycan Prezidenti tərəfindən imzalanmış adıçəkilən hər iki sərəncam məhz bu məqsədlərə xidmət edir və ölkəmizin rəhbərinin öz vətəndaşına sonsuz qayğısının təzahürüdür.

Əlbəttə ki, müharibə qansız-qadasız, dağıntısız ötüşmür, onun öz qanunları var. Ancaq xalqımız 30 ildən çox idi ki, amansız, zalım, nə sülh, nə də müharibə qanunlarını saya salmayan, beynəlxalq normalara məhəl qoymayan vəhşi bir düşmənlə - erməni faşistləri ilə üz-üzə idi. Bu illər ərzində təcavüzkar ermənilər xalqımızın başına ağlasığmayan müsibətlər gətirmişlər, faciələr, soyqırımlar törətmişlər.

Onlar ipə-sapa sığmırdılar. Etdikləri vəhşiliklərin cəzasını çəkmək əvəzinə havadarlarına arxalanıb daha harınlaşır, qudururdular. Yeni torpaqlar işğal etmək, əraziləri genişləndirmək eşqinə düşmüşdülər. Təcavüzkarlar sərsəm bəyanatlar səsləndirir, xalqımızın hissiyatına toxunur, yeni tələblər irəli sürür və özlərini məğlubedilməz hesab edirdilər. Ən mötəbər beynəlxalq təşkilatların qərarlarını, qətnamələrini kağız parçası hesab edir, sülh təkliflərini qulaqardına vurur, heç kimi eşitmək istəmirdilər.

Ancaq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz, igid əsgər və zabitlərimiz azqınlaşmış erməni təcavüzkarlarının, onların havadarlarının dərsini verdi, ordumuzun, xalqımızın birliyi və şücaəti bütün dünyaya nümayiş etdirildi.

Erməni dövləti, erməni rəhbərliyi və ordusu rəzil vəziyyətə salındı, sındırıldı, məhv edildi.

Bu xalqımızın tarixi, heç vaxt unudulmayan qələbəsidir. Bu haqqın-ədalətin zəfəridir. Bu prezidentlə xalqın, ordunun birliyinin təntənəsidir. Bu səsimizə səs verən, çətin gündə bizimlə bir olan, haqqa tərəfdar çıxan dost ölkələrin, qardaş xalqların zəfəridir. Azərbaycan xalqı bu zəfərlə, qələbə ilə fəxr edir. Hörmətli Prezidentimiz də qalib xalqın sərkərdəsi olmasından, insanların həyatı, firavanlığı üçün mühüm sərəncamlar imzalamaqdan, onlara xidmət etməyindən, cəsur, mehriban insanların hörmət və məhəbbətini qazanmaqdan qürur duyur.

Sözsüz bu birlik bizi daha mühüm uğurlara çatdıracaq, azad olunmuş bütün şəhər və kəndlərimiz abadlaşacaq, dövlət insanların rahat yaşaması, dəymiş ziyanın, çətinliklərin aradan qaldırılması üçün bütün tədbirləri görəcək və Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Mədəniyyət xadimləri ilə videokonfrans formatında görüş keçirilib

Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov mədəniyyət xadimləri ilə videokonfrans formatında görüş keçirib.




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Qarabağa qayıdış, işğaldan azad olunan torpaqlarda mədəniyyət infrastrukturunun yaradılması ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Videokonfrans iştirakçılarını salamlayan Anar Kərimov bir neçə ay öncə mədəniyyət xadimləri ilə bu formatda görüş keçirildiyini və aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb. Ötən müddətdə tarixi hadisələrin baş verdiyini, ölkəmizin Vətən müharibəsində qalib gəldiyini deyən Anar Kərimov bu günlər ümumxalq sevincini yaşadığımız böyük zəfər münasibətilə mədəniyyət xadimlərinə təbriklərini çatdırıb. Bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımızı işğaldan azad edib. Bu müharibədə qəhrəmanlıq göstərən Vətən övladları sırasında mədəniyyət işçiləri də var. Müharibədə iştirak etmiş 65 nəfər mədəniyyət işçisindən 6 nəfər şəhidlik zirvəsinə ucalıb. Vətən uğrunda canlarından keçən bu gənclər adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazıblar. 6 nəfər döyüşlərdə yaralanıb, ümumilikdə 162 nəfəri mədəniyyət işçisinin yaxın qohumu şəhid olub.

Anar Kərimov bütün şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyib. Qeyd edib ki, Vətən müharibəsi günlərində xalqımız, o cümlədən mədəniyyət xadimləri, yaradıcı insanlar, Ali Baş Komandanın da vurğuladığı kimi, bir yumruq kimi birləşərək öz həmrəyliyini göstərib, müzəffər Ordumuza dəstək veriblər. Mədəniyyət Nazirliyinin də bu prosesdə aktiv iştirak etdiyini deyən Anar Kərimov bildirib ki, iki əsas istiqamətdə fəaliyyət həyata keçirilib: ölkə daxilində vətənpərvərlik ruhunun yüksəldilməsi, Qarabağla bağlı zəngin irsimizin təbliği və xaricdə bəzi dairələrin ölkəmizə qarşı qarayaxma kampaniyasına cavab verilməsi, Azərbaycan həqiqətlərinin yayılması.

Sonra Anar Kərimov Vətən müharibəsi günlərində nazirlik tərəfindən internet üzərindən, o cümlədən sosial şəbəkələr vasitəsilə həyata keçirilən və bir qismi indi də davam edən "Qarabağ - mədəniyyətimizin beşiyi", "Ordumuz üçün yarat", "Qarabağnamə", "Mənim qəhrəman əsgərim" ədəbi müsabiqəsi, "Biz bərpa edəcəyik" və başqa layihələr barədə məlumat verib. Vurğulayıb ki, Qarabağın işğaldan azad edilməsi təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası, insanların doğma yurdlarına qayıdışı deyil, eyni zamanda, bu torpaqlara geniş anlamda mədəniyyətin qayıtması deməkdir: "Ona görə də bu yöndə layihə və aksiyalarımızı "Mədəniyyəti Qarabağa qaytarırıq" devizi ilə həyata keçiririk. Biz bu torpaqlara mədəniyyəti qaytarmaqla, oradakı tarixi-mədəni irsi bərpa etməklə dünyaya da göstərəcəyik ki, Qarabağda 30 ilə yaxın vandalizmlə, talanla məşğul olanlardan fərqli olaraq, bu yerlərin əsl və əzəli sahibi kimlərdir".

Anar Kərimov diqqətə çatdırıb ki, bu günlər bəzi ölkələrdə, beynəlxalq dairələrdə guya Qarabağdakı xristian irsinin məhv edilməsi ilə bağlı Azərbaycana qarşı qarayaxma kampaniyası aparılır: "Bu çirkin kampaniyaya cavab olaraq "Xristian irsimizi tanıyaq" adlı layihəyə başladıq. Təkcə Qarabağda deyil, bütün Azərbaycan ərazisində xristian dininə aid olan və dövlət tərəfindən qorunan məbədlər, kilsələrlə bağlı hazırlanan videoçarxlar geniş rezonans doğurub. Bir sıra xarici KİV-dən bu mövzuda bizə müraciətlər də olub".

Eyni zamanda, Mədəniyyət Nazirliyi tərəfindən bu xüsusda ABŞ-dakı Metropolitan İncəsənət Muzeyinin, Fransanın, Rusiyanın bir qrup mədəniyyət xadiminin qərəzli mövqeyi ilə bəyanatlar verilib. Bundan əlavə, Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması, dinc insanları qətlə yetirməsi, eləcə də azad olunmuş ərazilərdə aparılan ilkin monitorinq nəticəsində üzə çıxan faktlar, ermənilərin Azərbaycanın mədəni irsinə qarşı vandalizm əməlləri barədə beynəlxalq təşkilatlara, 150-dən çox ölkənin mədəniyyət nazirlərinə müraciətlər göndərilib.

Bildirilib ki, ölkə başçısının müvafiq sərəncamı əsasında işğaldan azad olunmuş rayonlarda yaradılan müvəqqəti komendaturalar nəzdindəki işçi qruplarda Mədəniyyət Nazirliyinin nümayəndələri də təmsil olunur. Beş rayonda ilkin monitorinqlər zamanı 288 mədəniyyət müəssisəsi üzrə qeydiyyat aparılıb və onların, demək olar ki, hamısı tamamilə dağıdılmış vəziyyətdədir. İlkin monitorinqlər zamanı 162 tarix-mədəniyyət abidəsinə, tarixi, memarlıq və arxeoloji əlamət daşıyan obyektə də baxış keçirilib. 63 abidənin işğalçılar tərəfindən tamamilə dağıdıldığı, digərlərinin vandalizmə məruz qaldığı aşkar edilib. Hazırda monitorinq davam edir və onun nəticələri mütəmadi olaraq beynəlxalq təşkilatlara da təqdim olunacaq. Həmçinin Şuşa şəhərində ölkə başçısının müvafiq sərəncamına əsasən, mədəniyyət müəssisələri və obyektləri ilə bağlı invertarlaşdırma işləri aparılır.

"Qarabağda bizi böyük quruculuq işləri gözləyir" deyən A.Kərimov diqqətə çatdırıb ki, bu görüşün məqsədi də dövlət tərəfindən həyata keçiriləcək Böyük Qayıdış proqramında mədəniyyət xadimlərinin, müvafiq sahələr üzrə mütəxəssislərin, yaradıcı təşkilatların iştirakı, bu işə verə biləcəyimiz töhfələr barədə fikirləri dinləməkdir.

Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova, Xalq artisti, tarzən Ramiz Quliyev, Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov, Əməkdar incəsənət xadimi, rejissor Mehriban Ələkbərzadə, Əməkdar incəsənət xadimi, kinooperator Rafiq Quliyev, Bakı İncəsənət Mərkəzinin rəhbəri Rafael Gülməmmədli, Əməkdar artist Tahir İmanov, memar, sənətşünas Elçin Əliyev, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid, Əməkdar artist, dirijor Əyyub Quliyev, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, Xalq artisti Xuraman Qasımova, Əməkdar artist, dirijor Fuad İbrahimov, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxış ediblər.

Çıxışlarda belə bir ümumi fikir ifadə olunub ki, Qarabağın azad olunması uğrunda savaşda qalib gəlmişik, Vətən müharibəsi başa çatıb, amma mədəniyyət müstəvisində mücadilə davam edir. Qarabağda tarixi-mədəni irsimizi bərpa etməklə, bu torpağın əzəli sahibi kimi mədəniyyət və mənəviyyatımızı ən yüksək səviyyədə dünyaya təqdim etməklə bu mücadilədə də qalib olacağıq.

Qarabağda tarixi abidələrin bərpasına yerli və xarici mütəxəssislərin cəlb olunması, Şuşanın unikal tarixi-mədəni simasının qorunması, mədəniyyətimizin beşiyi olan şəhərdə musiqi festivallarının keçirilməsi, yenidən qurulacaq rayonlarda kitabxana fondlarının təşkili, teatr sənətinin, musiqi təhsilinin inkişafı, Qarabağda böyük qayıdışın kino-foto salnaməsinin yaradılması, Qarabağla bağlı mədəni aksiya və kampaniyaların daha çox xarici arenaya çıxarılması və s. məsələlərə dair təkliflər səsləndi, fikir mübadiləsi aparılıb.

Anar Kərimov səslənən bütün təkliflərin əhəmiyyətini vurğulayaraq, bır sıra məsələlərlə bağlı Mədəniyyət Nazirliyi tərəfindən görülən işlər, nəzərdə tutulan layihə və tədbirlər barədə fikirlərini bölüşüb.

Nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Azad Cəfərli, nazirliyin Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov aidiyyəti sahələrlə bağlı məsələlərə dair məlumat veriblər.

Videokonfransa yekun vuran Anar Kərimov bütün iştirakçılara təşəkkürünü bildirib və mədəniyyət xadimləri ilə aktual məsələlərə dair müxtəlif formatlı görüşlərin gələcəkdə də davam etdiriləcəyini qeyd edib.

# İnformasiya savaşının Qalibi

## 44 gündə 30-a yaxın xarici KİV-ə müsahibə verən İlham Əliyev bu cəbhədə də düşmənə sarsıdıcı zərbə vurdu

**Ərazi bütövlüyünün bərpası məsələsi torpaqları işğala məruz qalmış dövlətlər üçün tarixboyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi dövləti qaliblər sırasına çıxarıb, onun xalqını daha məğrur edib. Belə bir qürurdoğuran taleyini indi Azərbaycan yaşayır. Ermənistanın işğalına son qoyaraq ərazi bütövlüyünü təmin edən xalqımız tarixinin şərəfli səhifəsini yazdı.**



Tarixini bu möhtəşəm Qələbə ilə şərəfləndirən Azərbaycan bütün dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Bu zəfərlə biz məğlubiyyət damğasını üzərimizdən götürdük. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq və bu dəfə qalib dövlət, qalib xalq kimi... Bu qələbənin altındakı imzanın müəllifi isə İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusudur.

### Nümunəyə çevrilən zəfər

Öz haqqını qorumaq, pozulmuş hüquqlarını təmin etmək bugünkü ziddiyyətli və dəyişkən beynəlxalq münasibətlər sistemində hər dövlətə nəsib olan imkan deyil. Yaxın, uzaq coğrafiyamızda kifayət qədər ölkə göstərmək olar ki, haqsız şəkildə təzyiq və təsirlərə məruz qalıb, ərazi bütövlüyü pozulub, vətəndaşları hansısa xarici maraqların qurbanına çevrilib. Ələlxüsus güc amilinin beynəlxalq hüquqdan önə keçdiyi indiki şəraitdə bir çox dövlət beynəlxalq ictimaiyyətin laqeyd münasibətinin formalaşdırdığı vəziyyətlə sadəcə barışmalı olur.

1990-cı illərin əvvəllərində torpaqları işğal olunan Azərbaycan da bu taleyi yaşamışdı. Sonrakı illərdə aparılan danışıqlar isə beynəlxalq ictimaiyyətin laqeyd münasibətinin, ATƏT-in Minsk qrupunun həmsədrlərinin səmərəsiz fəaliyyətinin yekunu olaraq nəticəsiz qalmışdı. Amma Azərbaycan dövləti bu illərdə heç vaxt vəziyyətlə barışmamış və istənilən yolla torpaqlarını işğaldan azad edəcəyini bildirmişdi. Artıq zaman yetişdi və ordumuz 44 gün ərzində işğal altında olan rayonlarımızın böyük bir qismini və Qarabağın ürəyi Şuşanı azad etdi.

Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarından və Şuşanın azad edilməsindən sonra Ermənistan kapitulyasiya bəyanatını imzalamağa məcbur edildi. Ermənistanın məğlubiyyətinin təsdiqi olan bəyanata əsasən Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycan Ordusunun nəzarətinə keçib. Şuşanın azad edildiyi tarix isə təqvimə Zəfər Günü kimi düşdü.

### Dünya artıq erməni yalanlarına inanmır

Məlum olduğu kimi, işğalçı dövlət uzun illərdir erməni lobbisinin və xarici havadarlarının köməyi ilə münaqişə haqqında dünyada informasiya vakuumu yaratmağa, öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa çalışır. Müəyyən zamanlarda niyyətlərinə çatsalar da, artıq zaman dəyişib. Xüsusən 2016-cı ilin Aprel döyüşlərindən sonra problemlə bağlı beynəlxalq reaksiyalar göstərdi ki, dünya artıq erməni yalanlarına inanmaq istəmir.

Xatırlayırıq ki, hələ Aprel döyüşləri, eləcə də Ermənistanın Tovuz istiqamətində təxribatı zamanı heç bir dövlət və təşkilat açıq şəkildə işğalçını müdafiə edən fikir səsləndirməmişdi. Çünki onların böyük əksəriyyəti ikili standartlardan çıxış etsə belə kimin işğalçı olduğunu, kimin isə işğala məruz qaldığını yaxşı bilirdi və belə bir vəziyyətdə Ermənistana dəstəyin ifadə edilməsi ən böyük siyasi riyakarlıq olardı. O zaman Yerevanın ən yaxın müttəfiqləri belə açıq şəkildə onu müdafiə etmədilər.

Bəli, Azərbaycan informasiya blokadasını nəinki çoxdan sındırıb, həm də Prezident İlham Əliyevin hücum diplomatiyasının nəticəsində erməni yalanlarına böyük zərbə vurub. Bugünkü reallıqları, tarixi həqiqətləri düzgün dəyərləndirən ayrı-ayrı ölkələrin siyasi mərkəzləri uzun illərdir dünyanı aldadan ermənilərin əlində artıq alət olmaq istəmirlər. Xatırladaq ki, hələ Tovuz döyüşləri zamanı ABŞ Konqresində Azərbaycan əleyhinə daşnaklar tərəfindən təşviq olunan qanunvericilik təkliflərinin qarşısının qətiyyətlə alınması və ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlərin qəbul edilməsi də dünya erməniliyinin saxta təbliğatına böyük zərbə vurmuşdu.

### İlham Əliyev informasiya mübarizəsinin önündə getdi

44 günlük müharibədə Azərbaycan həm də informasiya cəbhəsində mübarizə apardı və qalib çıxdı. Həmin günlərdə respublikamız düşmənin saxta informasiya cəbhəsini darmadağın etdi. Hətta Ermənistanın havadarları olan dövlətlərdə belə KİV-in saxta təbliğatı nəticəsiz qaldı və ictimaiyyət onların yalan informasiyalarını qəbul etmədi.

Ermənistana qarşı həm informasiya mübarizəsinin, həm düşmənin saxta təbliğatının qarşısının alınması, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması prosesinin önündə isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev getdi. Hərb meydanında olduğu kimi, informasiya məkanında da İlham Əliyev düşmənə sarsıdıcı zərbə vurdu.

Xatırladaq ki, Azərbaycan hələ əks-hücum əməliyyatından, münaqişədən əvvəl Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə, bütün mümkün vasitələrdən istifadə etməklə beynəlxalq arenada ifşa etməyi bacarmışdı. 2020-ci ilin iyul təxribatından əvvəl və sonra Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda Ermənistanın işğalçı siyasətini ifşa etdi, düşmən ölkənin Azərbaycana qarşı yeni planlar qurduğunu faktlarla sübuta yetirmişdi.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində bərpa olunan hərbi əməliyyatlar dövründə isə İlham Əliyev dünyanın nüfuzlu televiziya kanallarına müsahibələrində münaqişənin tarixi, səbəbləri, hazırkı vəziyyəti, habelə Azərbaycanın mövqeyini əsaslandıran tarixi, hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

İlham Əliyev sentyabrın 29-dan noyabrın 6-na kimi 26 xarici KİV-ə müsahibə verdi. Bunlar Rusiyanın "Rossiya-1, "Pervıy", RBK televiziya kanalları, "Ria Novosti", TASS və "İnterfaks" agentlikləri, Türkiyənin "TRT Haber", CNN-Türk, "Haber Global", "Haber Türk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziyaları, "Figaro" qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-ın "Fox News" televiziyası, İtaliyanın Rai-1 televiziyası və "La Repubblica" qəzeti, İspaniyanın "EFE" informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyicisi olan "əl-Cəzirə", "əl-Ərəbiyə", "Euronews", "CNN International", "BBC News" televiziya kanallarıdır.

Prezident İlham Əliyev Ermənistanın mövqeyini müdafiə edən KİV-in də müraciətinə müsbət yanaşaraq onların suallarını cavablandırdı. Bu zaman dövlət başçısı təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla Azərbaycanın haqlı mövqeyini elə əsaslandırdı ki, ondan sonra erməni lobbisinin maraqlarına xidmət edən jurnalistin əlavə sual verməyə gücü çatmadı. İlham Əliyev bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verdi, məsələnin mahiyyətini səbirlə izah etdi, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirdi.




Jurnalistlər vasitəsilə səsləndirilən əsas suallardan biri ermənilərin bu ərazilərdə guya lap qədimlərdən yaşamaları barədə olurdu. Əslində, bu sualın əsl mahiyyəti belə idi: ermənilər əvvəldən burada yaşayıblar, işğal etdikləri ərazi onlarınkı olub, niyə yerlərindən qovursunuz?!

Bəlkə də bu sualı verən onun gülünc səslənməsinin mahiyyətinə varmırdı. Ancaq cənab İlham Əliyev özünü o yerə qoymayaraq 1805, 1813 və 1828-ci il Kürəkçay, Türkmənçay və Gülüstan müqaviləsinə əsasən ermənilərin sonralar - Qarabağ və Şuşa xanı İbrahimxəlil xanla rus generalı Sisianovun imzaladıqları müqaviləyə əsasən bu torpaqlarda yerləşdirildiklərini, qədim Azərbaycan şəhəri İrəvanın isə onlara paytaxt kimi verildiyini söyləyərək həm də tarix dərsi keçirdi. Üstəlik, tarixi mənbənin yerini də göstərirdi: internetə girməklə həmin sənədlərlə özünüz də tanış ola bilərsiniz! Həm də başa salırdı ki, yerli əhali azərbaycanlılardır, indi isə yersiz ermənilərə yerlərini göstərirlər!

Bununla da Prezident İlham Əliyev erməni təbliğatına hətta düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu. Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarına əsaslanaraq yenidən özü üçün münbit informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

### Azərbaycana qarşı KİV vasitəsilə həyata keçirilən məkrli planlar iflasa uğradı

Əslində, dünya erməniliyi - ermənilərin dostları və ikili standartlar səbəbindən bizə düşmən münasibəti bəsləyənlər sülh danışıqlarının qırılaraq hərbi əməliyyatların başlayacağını, yeni müharibədə Azərbaycanın yeni taktika, yeni silahlarla nümunə ortaya qoyacağını, öz gücü və imkanları hesabına torpaqlarını bu qədər sürətlə, özü də Ermənistanın ordusuna sarsıdıcı zərbələr vurmaqla, onu tarı-mar etməklə nail olacağını güman etmirdi.

Çaşbaş və özlərini itirmiş vəziyyətdə qalanlar hərbi əməliyyatlara müxtəlif səbəblərdən müdaxilə edə bilmədiklərindən güclərini diplomatiya, o da nəticə vermədiyindən informasiya müharibəsində cəmləşdirmişdilər.

Məqsəd Azərbaycanı sülh danışıqlarını pozaraq müharibəyə başlayan, başqa dövlətlərdən kömək alan, döyüşlərdə əcnəbi muzdlulardan istifadə edən, qadağan olunmuş silahları tətbiq edən, demokratiyanı pozan, erməniləri Qarabağdan qovmağa çalışan bir dövlət kimi təqdim etmək, siyasi nüfuzuna xələl gətirmək idi. Lakin İlham Əliyev öz müsahibələrində bütün buların qarşısını aldı, dünya erməniliyinin Azərbaycana qarşı məkrli planlarını iflasa uğratdı.

Eyni vaxtda Ermənistanın baş naziri Paşinyan da xarici KİV-ə müsahibələr verirdi. Lakin Paşinyan hər dəfə danışdıqca özünü və ölkəsini biabır etdi və bununla həm də Ermənistanın informasiya müharibəsindəki məğlubiyyətini də təmin etdi.

### Beynəlxalq hüquq dövlətimizin tərəfində idi

Artıq Dağlıq Qarabağ problemi yoxdur. Azərbaycan öz qələbəsi ilə bu problemə son qoydu. Bu qələbə ilə bağlı çox danışılacaq. Üstündən illər, onilliklər, hətta yüzillər ötsə də, Azərbaycanın bu tarixi qalibiyyətinə müraciət ediləcək, bir dövlətin, bir xalqın öz haqq işi uğrunda mübarizəsi bütün dünyada nümunə kimi göstəriləcək. Bu qələbə həm də tədqiq ediləcək və böyük olmayan dövlətin belə möhtəşəm uğura nail olmasının səbəbləri tarixboyu ciddi öyrəniləcək, araşdırılacaq.

Bununla yanaşı, münaqişənin nəticəsiz qalan sülh yolu ilə həlli prosesi də daim araşdırmaların, tədqiqatların diqqət mərkəzində olacaq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair hələ Birinci Qarabağ müharibəsinin gedişindən başlanmış danışıqlarda beynəlxalq hüquq ölkəmizin tərəfində olub. İlk növbədə ona görə ki, vaxtilə sovet dövlətinin yaratdığı Dağlıq Qarabağ Muxtar Vilayətinin əraziləri tarixi Azərbaycan torpaqlarıdır və onun digər 15 respublika kimi müstəqilliyini elan etməsi üçün heç bir hüquqi çərçivə yox idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün dövlətlər Dağlıq Qarabağı respublikamızın ərazisi kimi tanıyıblar. Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatı olan BMT-yə və digər beynəlxalq qurumlara üzv qəbul olunanda Dağlıq Qarabağ da Azərbaycanın ərazisi kimi tanınıb.

Beynəlxalq hüquqa əsasən xarici dövlətin silahlı qüvvələrinin təcavüz, hücum, işğal və ya bombardman şəklində olmasından asılı olmayaraq, hər hansı bir silahlı hücum baş verdikdə özünümüdafiə hüququ dərhal və hamı üçün qüvvəyə minir. Bu barədə BMT Nizamnaməsinin 51-ci maddəsində deyilir: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir".

Beynəlxalq qanunvericiliklə yanaşı, problemin Azərbaycanın ədalətli mövqeyi çərçivəsində həllinə imkan verən sənədlər BMT Təhlükəsizlik Şurasının (TŞ) 1993-cü il ərzində qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr, o cümlədən beynəlxalq təşkilatların qərarları idi. Bu sənədlərdə Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması tələb olunurdu.

BMT TŞ-nin sədrləri Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təsdiqləyən və münaqişənin sülh yolu ilə həll olunmasına yönəlmiş ATƏT-in Minsk qrupunun səylərini dəstəkləyən bəyanatlarla çıxış ediblər. BMT Baş Assambleyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul olunub və bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edilib.

Bütün bunlar problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb edən beynəlxalq hüquqi normalardır. Lakin BMT kimi mötəbər bir təşkilatın qətnamələri 27 ildir kağız üzərində qaldı. Bu təşkilat Ermənistana qarşı təsirli mexanizmlərin işə salınmasına maraq göstərmədi. Bu sənədlərə imza atanlar həm də ATƏT-in Minsk qrupunun həmsədrləridir. Lakin təəssüflə qeyd edilməlidir ki, 1994-cü ildə atəşkəsdən sonra davam edən danışıqlar prosesində BMT-nin qətnamələrinin icrası Ermənistandan tələb olunmayıb. Baxmayaraq ki, müasir beynəlxalq münasibətlərdə ayrı-ayrı dövlətlərə qarşı dərhal beynəlxalq təzyiqlərin edilməsinə dair faktlar var. Məsələn, vaxtilə Küveytə qoşun yeridən İraqa qarşı beynəlxalq koalisiyanın formalaşdırılmasını göstərmək olar. Bu praktikanın Ermənistana qarşı tətbiq olunmaması Azərbaycanın üzləşdiyi beynəlxalq hüquqi ədalətsizliyin növbəti nümunələrindən biri idi.

### Azərbaycan Prezidenti siyasi təzyiqlərin qarşısını uğurla aldı

Azərbaycanın Ermənistanı cəzalandırmağa başlamasından sonra bir sıra dövlətlər məsələ ilə bağlı münasibətlərini bildirərək atəşkəsə dəvət etdilər. Bu, beynəlxalq münasibətlər sistemində qəbul olunmuş diplomatik yanaşmadır. Olduqca sevindirici haldır ki, Azərbaycan dost və qardaş dövlətlərdən ən ali səviyyələrdə dəstək aldı. Türkiyə və Pakistan kimi dövlətlər açıq və birmənalı şəkildə Azərbaycana dəstəklərini ifadə etdilər

Ermənistana gəldikdə isə vəziyyət fərqli oldu. Hər gün telefonlardan asılı qalan Paşinyana hətta Ermənistanın özünə yaxın hesab etdiyi dövlətlər belə gözlənilən siyasi dəstəyi ifadə etmədilər. Yalnız Fransa Prezidenti E.Makron açıq şəkildə ermənipərəst mövqe tutdu ki, bu da ölkəsinin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına tamamilə zidd idi. Makron bununla neytral vasitəçilik missiyasının tələblərini kobudcasına pozdu. Makronun açıqlamaları göstərdi ki, erməni lobbisinin qurbanı olan bu adam dövlət idarəçiliyi məsələlərinə tamamilə yaddır və bir prezident üçün tələb olunan siyasi və mənəvi keyfiyyətlərə malik deyil. Aşağı səviyyəli sarı mətbuatın yaydığı feyk xəbərlərin Fransa kimi ölkənin başçısının dilindən səslənməsi, ilk növbədə, fransız xalqı üçün başucalığı gətirmədi.

Qeyd edək ki, hərbi əməliyyatlar başlayandan sonra Makron Prezident İlham Əliyevlə telefon əlaqəsi yaradaraq ermənipərəst mövqeyini ifadə edib. Bu zaman Prezident İlham Əliyev özünün qətiyyətli və prinsipial mövqeyini ifadə edib və göstərib ki, heç nə Azərbaycanı özünün milli maraqlarından çəkindirə bilməz. "Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək", - deyə Prezident İlham Əliyev bununla bağlı bildirib.

Prezident İlham Əliyev informasiya cəbhəsində olduğu kimi, siyasi-diplomatik təzyiqlərin də qarşısını əzmlə, qətiyyətlə aldı. İlham Əliyev siyasi müdrikliklə respublikamıza qarşı beynəlxalq diplomatik cəbhənin formalaşmasına imkan vermədi.

Oktyabr ayında BMT-də Fransanın təşəbbüsü ilə Ermənistanın maraqlarına cavab verən qətnamənin qəbuluna da cəhd göstərildi. Belə ki, BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra əsasən Fransanın təşəbbüsü ilə TŞ prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanatın layihəsində TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrə istinad yer almamışdı. Buna görə də TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına (QH) üzv olan 7 ölkə - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin - layihəyə TŞ qətnamələrinə istinadın daxil edilməsini təklif edib. Bəyanatın iki dəfə qəbuluna cəhd göstərilməsinə baxmayaraq, QH ölkələri prinsipial mövqe nümayiş etdiriblər və bundan sonra bəyanat layihəsinin müəllifləri onu geri götürməyə məcbur olublar.

Bu hadisə Azərbaycanın hərbi əməliyyatlar dövründə növbəti mühüm siyasi-diplomatik qələbəsi kimi tarixə düşdü. Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirilən fəaliyyətin fonunda bir daha göründü ki, Prezident İlham Əliyevin xarici siyasət xətti zərgər dəqiqliyi ilə ölçülüb-biçilib və beynəlxalq səviyyədə milli maraqlarımıza dəstəyin qazanılmasını uğurla təmin edir.

*Beləliklə, Ali Baş Komandan kimi Prezident İlham Əliyev eyni vaxtda həm döyüş, həm də informasiya cəbhəsində məharətli sərkərdə kimi ölkəsinin maraqlarını inamla və qətiyyətlə müdafiə etdi. Dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verdi. Ən əsası, İlham Əliyev məsələlərə operativ müdaxiləsi və reaksiyası, hadisələri nəzarətə götürmək, vəziyyəti idarə etmək bacarığı ilə istənilən ağır şəraitdə, taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı şəxsi nümunə ortaya qoydu. Bir daha sübut olundu ki, milli maraqlarımız Prezident İlham Əliyev üçün ən ali dəyərdir.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# 44 zəfər gününün qəhrəmanları



## Onlar vətən sevgilərinin şərəf mükafatına layiq görüldülər

*Əvvəli 1-ci səh.*

"Vətən bizi çağırır!" deyən oğullarımız yağı düşməndən - torpaqlarımıza göz tikərək qanımıza susayan erməni vandallarından qisas almaq üçün irəli atıldılar. Həyat dolu gənclərimiz təbəssümlə döyüşə yollandılar, canlarıyla ana yurda sipər oldular, Qarabağda Azərbaycanın yeni qürurverici tarixini qanlarıyla yazdılar. Qarabağ uğrunda döyüşən hünərli oğullarımızın hər birinin müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni darmadağın etmək idi.

İgidlərimiz daim irəli atıldılar, sıldırımlar aşdılar, yaralansalar belə, döyüşməkdən vaz keçmədilər, mənfurları diz çökdürməyənə qədər haqq savaşlarından əl çəkmədilər.

Addım-addım, qarış-qarış irəlilədilər, işğal altındakı yaralı yurdlarımızı bir-bir azad etdilər.

Əsrlərə bərabər bu 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Haqlı olmalarından, ana torpağa tükənməz sevgilərindən güc aldılar, çarpışdılar, vuruşdular. Bu yolda canlarını qurban verməkdən belə çəkinmədilər, şəhid, qazi oldular, bir öldülərsə, min dirildilər, yenə də düşmənə aman vermədilər. Yağıların üzərinə yeriyəndə də, torpaq uğrunda son damla qanlarınadək vuruşub şəhidlik zirvəsinə ucalanda da son sözləri "Vətən" oldu.

### Mənfurlara əl-qol açmağa aman vermədilər

Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əzmkar oğullarımızın polad iradəsi sayəsində cəmi 44 gün ərzində haqq savaşımız qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı...

Azərbaycan Ordusu vətən uğrunda başladığı ölüm-dirim savaşında ardıcıl zəfərlərə imza atdı. Nərələrindən düşmənin bağrı çatlayan bu ərənlər mənfur yağılara nə yerdə, nə də göydə əl-qol açmağa aman vermədi. Hər gün cəbhədə qazandıqları qələbə sədaları milyonların sevincinə, xalqımızın şadyanalığına səbəb oldu. Bayrağımızın vətən torpaqlarında, şah zirvələrdə qürurla dalğalanması hər birimizin qəlbini riqqətə gətirdi, illərlə köksümüzdə sıxılıb qalan həsrəti bir andaca yox etdi.

Rəşadətli Ordumuzun sarsıdıcı həmlələri, zəfərləri milyonlarla qaçqın və köçkünün ürəyindən Qarabağ nisgilini bilmərrə silib atdı.

### Zəfər təntənəmizin nümayişi

Dekabrın 10-da möhtəşəm Zəfər Paradında Azərbaycan xalqı cəsur oğullarını qürur hissi ilə seyr etdi, onların hər birinə minnətdarlıq ünvanladı...

Göylərdə süzən şahinlərimizi fəxarətlə seyr etdi, qorxmaz oğullarımızın darmadağın etdiyi düşmən texnikalarının tamaşasına durdu

Azərbaycan dəmir yumruğunun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini isbat etdi...

Cənab Prezident İlham Əliyevin Zəfər paradında vurğuladığı kimi: "...Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

### Yüksək ehtiramın təzahürü

Azərbaycanın igid övladları dünya var olduqca sevgi və sayğı ilə xatırlanacaq, onların şücaətləri qədirbilən xalqımız tərəfindən daim qiymətləndiriləcək, yüksək dəyərləndiriləcək...

Elə "Vətən Müharibəsində qələbə münasibətilə" Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi və igidlərimizə təqdim olunması da bu yüksək ehtiramın təzahürüdür. Dövlətimiz qəhrəmanlarımızın hər birinin əziyyətini dəyərləndirdi. Prezident İlham Əliyevin dekabrın 9-da imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında" sərəncama əsasən, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları "Zəfər" ordeninə, "Qarabağ" ordeninə layiq görüldü, "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı aldılar.

Dövlət başçısının dekabrın 15-də imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş hərbi qulluqçular "Azərbaycan Bayrağı", "Rəşadət" və "Vətənə xidmətə görə" ordenləri ilə təltif olundular.

Həmçinin 3 general-leytenant 1-ci dərəcəli, 9 hərbçi 2-ci dərəcəli, 331 hərbi qulluqçu isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olundu. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan hərbi qulluqçuların 44-ü ölümündən sonra bu yüksək mükafata layiq görülüb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Silahlı Qüvvələrimizin 3601 hərbi qulluqçusu "Vətən uğrunda" medalı ilə təltif olundu. Onlardan 2756-sı ölümündən sonra bu medala layiq görüldü.

Dekabrın 18-də isə Prezident İlham Əliyev daha 7184 hərbçini təltif etdi. Belə ki, dövlət başçısı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının 622-sinin "İgidliyə görə", 1113-nün "Döyüşdə fərqlənməyə görə" və 5449-unun isə "Cəsur döyüşçü" medalları ilə təltif olunması barədə sərəncamlar imzalayıb.

Bəli, 44 günlük Zəfər mübarizəmizin azman igidlərinin hər biri düşmənlə savaşda göstərdiyi rəşadətin, torpaq sevgisinin şərəf mükafatını aldı. Bu torpaq uğrunda canlarından keçən şəhidlərimizin müqəddəs haqq mübarizəsi qiymətləndirildi...

Amma o oğulların, o Vətən sevdalıların, o Vətən fədailərinin ən ali mükafatı, ən uca qiyməti xalqımızın ürəyində fəth etdikləri sevgi, qürur zirvəsidir...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# Erməni diasporu Paşinyandan ianələrin hesabatını tələb edir

*Əvvəli 1-ci səh.*

Bu ərəfədə "Hayastan" ümumerməni fondu ikinci Qarabağ müharibəsi zamanı Paşinyan hökumətinə verdiyi 52 milyard dramdan çox vəsaitin hesabatını istəyir. Məsələ burasındadır ki, bu ianələrin əhəmiyyətli bir hissəsi dövlət büdcəsinə köçürülüb və bunun hansı məqsədlə istifadə edildiyi məlum deyil. Təsadüfi deyil ki, Ermənistan prezidenti, "Hayastan" fondunun qəyyumlar şurasının sədri Armen Sarkisyan vəsaitlərin xərclənməsinin beynəlxalq auditini keçirməyə çağırmışdı. Ancaq ianələr hesabına hansı xərclərin həyata keçirildiyi və rəsmi sənədlərdə necə leqallaşdırıldığı qəti bəlli deyil.

Qeyd edək ki, 1992-ci ildə qurulan "Hayastan" fondu Ermənistanın və dünya ermənilərinin inkişafı üçün çalışan təşkilat kimi fəaliyyət göstərib. Bu fond Ermənistanın işğal siyasətinə fəal dəstək verib. "4rd.am" saytı yazır ki, fonda vəsait köçürən xeyriyyəçilərin coğrafiyası kifayət qədər genişdir. Bildirilir ki, fonddakı vəsaitlərin naməlum şəkildə yoxa çıxması ilə bağlı yaranan qalmaqal ilk dəfə deyil. Məsələn, 2018-ci ilin yayında "Hayastan"ın direktoru Ara Vardanyan fonda təqdim edilmiş 25 milyon dramı nağdlaşdıraraq götürüb. Sonra bəlli olib ki, bu pullar kazinolarda qumar oyunlarına sərf olunub. Ermənistandakı "Qnçak" Sosial Demokrat partiyası idarə heyətinin üzvü Ambik Sarafyan deyib ki, hər il ianələr azalmağa doğru gedir.

Əslində, mövcud qalmaqal fondun Ermənistanın hərbi ehtiyaclarını ödəmək və ya dövlət büdcəsinin kəsirini örtmək üçün pul xərcləyə bilməməsindən qaynaqlanır. Xüsusən də Ermənistan büdcəsindən köçürülən məbləğlərin konkret hədəfinin bəlli olmaması ciddi narazılıq yaradır. Ona görə də bu, Ermənistan gündəmində gizli, lakin ən çox müzakirə olunan məsələdir.

Beləliklə, indi Ermənistandakı mövcud siyasi gərginliyə bir səbəb də əlavə olunmaqdadır. İndi diaspor Paşinyandan ianələrin hesabını istəyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Yenə də dünyanın «ən islahatçı on ölkə»si sırasındayıq

## Dünya Bankı Azərbaycanda iqtisadi islahatların uğurla aparıldığını təsdiqləmişdir

*Əvvəli 1-ci səh.*

Müvafiq düzəlişlər aparıldıqdan sonra bu hesabatda Azərbaycanın əldə etdiyi bal 76,7-dən 78,5-ədək artırılmış və nəticədə qlobal reytinq sıralamasında mövqeyimiz 191 ölkə arasında 34-dən 28-ə yüksəlmişdir. Beləliklə, Azərbaycan Dünya Bankı tərəfindən yenidən dünyanın ən islahatçı on ölkəsindən biri kimi qiymətləndirilmişdir. Bir daha vurğulayaq ki, bu qurumun 2019-cu il hesabatında da Azərbaycan dünyanın ən islahatçı on ölkəsindən biri olmuşdur.

Azərbaycan 28 ildir ki, Dünya Bankı ilə sıx əməkdaşlıq edir. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlara daim dəstək verib. Azərbaycanın bu təşkilatla əməkdaşlığı bilik və məlumatların mübadiləsinə, texniki dəstəyə və maliyyələşdirməyə əsaslanır, qarşılıqlı əlaqələr tərəfdaşlıq strategiyası çərçivəsində həyata keçirilir. Dünya Bankı ölkəmizdə kənd təsərrüfatı, səhiyyə kimi sahələri, kənd yerlərinin inkişafını, magistral yolların yenidən qurulması üzrə layihələri, həmçinin "elektron məhkəmə" sisteminin tətbiqini və sair sahələri dəstəkləyir.

Əlbəttə, yeni sahələrdə əməkdaşlığın davam etdirilməsi də daim müzakirə mövzusudur. Bu baxımdan Dünya Bankının Azərbaycandakı islahatları belə diqqətlə izləməsi və artıq dəyərləndirilmiş nəticələri yenidən və daha obyektiv qiymətləndirməyə cəhd etməsi başadüşüləndir.

Hesabatın yeni redaktəsində "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə xüsusilə texniki şərtlər üçün sahəvi müayinələrin aparılması proseduru ləğv edilən və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılmışdır. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayı 5-ə, müddəti isə 32 günə qısaldılmışdır.

Ölkəmizdə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması da Dünya Bankı tərəfindən təsdiq olunmuşdur.

Sərhəddə ticarət indikatoru üzrə audit qrupu tərəfindən aparılan araşdırmalar nəticəsində "ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 12, "idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 4, "ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 28,5, "idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 26 saat, "ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)" sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit olunmuşdur. Qeyd edək ki, müvafiq subindikatorlar üzrə göstəricilər düzəlişdən əvvəlki hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi olmuşdur.

Diqqətçəkən məqamlardan biri odur ki, Dünya Bankı hesabatı yenilədikdən sonra belə halların baş verməməsi üçün bir sıra addımlar atmışdır. Belə ki, aidiyyəti daxili nəzarət qurumlarının ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirən bu uyğunsuzluqlara yol verən məsul işçiləri barədə bankın biznes etikası qaydalarına uyğun inzibati tədbirlər görüləcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# İşğaldan azad olunmuş ərazilərin bərpasında İtaliya şirkətləri ilə əməkdaşlıq məsələləri müzakirə edilib

Energetika naziri, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Pərviz Şahbazovla İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano arasında videokonfrans formatında görüş keçirilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər Azərbaycan-İtaliya arasında ikitərəfli əməkdaşlığın gündəliyinə daxil olan məsələləri, o cümlədən işğaldan azad olunmuş ərazilərin bərpasında İtaliya şirkətləri ilə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

İtaliyalı həmsədr bu günlərdə Bakıya səfəri və səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə, eləcə də digər rəsmilərlə keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib, iki ölkə arasında siyasi, iqtisadi və energetika sahələrində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində məhsuldar danışıqların aparıldığını bildirib.

Görüşdə işğaldan azad olunmuş ərazilərin bərpasında dost ölkələrin şirkətləri ilə əməkdaşlığın xüsusi təşviq olunduğu vurğulanıb. Bu baxımdan İtaliya şirkətləri ilə energetika infrastrukturunun bərpası, şəhərsalma, ərazilərin minalardan təmizləməsi, tarixi abidələrin bərpası, turizm, kənd təsərrüfatı sahələrində layihələrin həyata keçirilməsi müzakirə olunub.

# Azərbaycan pandemiyaya qarşı qlobal mübarizəyə mühüm töhfə verir

*Əvvəli 1-ci səh.*

### Azərbaycan ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görüb

Koronavirusun ilk üzə çıxdığı dövrdən etibarən Azərbaycan ona qarşı ən effektiv mübarizə aparan ölkələrdən olub. Bu ilin əvvəlindən Azərbaycan dövləti tərəfindən həyata keçirilən koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində ölkəmizdə yoluxma hallarının sayı minimuma endirilmiş, görülən qabaqlayıcı tədbirlər nəticəsində istər iqtisadiyyat, istərsə də əhali pandemiyanın dağıdıcı təsirinə ən az məruz qalmışdır. Hətta Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST tərəfindən dəfələrlə vurğulanmış, digər ölkələrə nümunə göstərilmişdir.

Dekabrın 18-də Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında da bu məsələyə toxunaraq bildirdi ki, Azərbaycan həm ölkə daxilində, həm də beynəlxalq arenada bu ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görüb.

Başa çatmaqda olan ilin dünyada əsas mövzusu pandemiyaya qarşı mübarizə olduğunu söyləyən Prezident məlumat verdi ki, qısa müddətdə ölkəmizdə laboratoriyaların sayı praktiki olaraq 8 dəfə artırılıb, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib: "Beləliklə biz COVID xəstələri üçün 10 mindən çox çarpayı təqdim etmişik. Həkimlərin çatışmaması da ümumi problem idi, çünki heç bir səhiyyə sistemində xəstələrin sayının bu qədər olacağı nəzərdə tutulmamışdı. Biz həmkar ölkələrlə operativ danışıqlar apararaq 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimləri dəvət etdik. Bu, xəstələrin müalicə olunmasında bizə xeyli dərəcədə kömək etdi".

### Maliyyə dəstəyi beş milyona yaxın vətəndaşı əhatə edib

Dövlətimiz qlobal böhranın ölkəmizdə daha az hiss olunması üçün bütün istiqamətlərdə lazımi qabaqlayıcı tədbirlər görür. Qeyd edək ki, karantin rejimi tətbiq olunandan vətəndaşlarımıza diqqət və qayğı göstərilir, maddi yardımlar edilir. Pandemiyadan zərər çəkən sahələrə dəstək göstərilir.

Hazırda bu tədbirlər davam etdirilir və tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardımın göstərilməsi planlaşdırılıb. Eyni zamanda zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara yardım edilməsi də nəzərdə tutulub.




Prezident İlham Əliyev həmin iclasda bildirdi ki, pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb: "Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edib, bu, bizim əhalinin yarısını təşkil edir".

Artıq koronavirusa qarşı peyvənd hazırlanıb və bəzi ölkələrdə tətbiqinə başlanılıb. Ölkəmizdə də vaksinlərin alınması ilə əlaqədar hazırlıq işləri görülüb, GAVI tərəfindən təsis edilmiş COVAX təsisatına qoşulub. Vaksinasiya isə pulsuz həyata keçiriləcək.

Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında bu məsələ ilə bağlı danışan ölkəmizin rəhbəri söylədi ki, indi dünyada vaksinləmə prosesinin başlandığı vaxtda biz də bu prosesə qoşuluruq: "Ötən aylar ərzində aparıcı vaksin istehsalçıları olan "Sputnik V", "AstraZeneca", "Sinofarm", "Sinovac", "Moderna", "Pfizer BioNTech" kimi firmalarla danışıqlar aparılıb. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan ölkələrin vaksinlərə ədalətli istifadə imkanını təmin etmək üzrə Ümumdünya Səhiyyə Təşkilatının iştirakı ilə beynəlxalq "COVAX" təşəbbüsünə ilk qoşulanlardan biri olub".

### Ölkəmiz beynəlxalq əməkdaşlığın fəal tərəfdarı kimi çıxış edir

Vurğulamalıyıq ki, dövlətimiz təkcə öz daxilində deyil, pandemiya ilə qlobal səviyyədə də mübarizə aparır. Çünki Yer üzünün ortaq bəlası olan COVID-19 təhlükəsindən beynəlxalq əməkdaşlıq sayəsində qurtulmaq mümkündür. Elə bu aspektdən yanaşaraq, COVID-19 pandemiyasına qarşı mübarizədə ölkələrin səylərini birləşdirməsi, çoxtərəfli əməkdaşlıq göstərməsi təşəbbüsünü də Azərbaycan irəli sürüb.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan pandemiyaya qarşı mübarizədə geniş beynəlxalq əməkdaşlığın fəal tərəfdarı kimi çıxış edib və edir: "...Biz bir sıra ölkələrə və beynəlxalq təşkilatlara maliyyə yardımı və humanitar yardım göstərilməsi proqramında da fəal iştirak etmişik. Biz Ümumdünya Səhiyyə Təşkilatının büdcəsinə 10 milyon dollar məbləğində könüllü ianə etmişik. Pandemiyanın birinci günündən etibarən biz bu təşkilatla daim əlaqədə olmuşuq, Azərbaycan 30-dan çox ölkəyə maliyyə yardımı və humanitar yardım göstərib. Beləliklə, üzvlərinin sayına görə BMT-dən sonra ikinci beynəlxalq təsisata - Qoşulmama Hərəkatına başçılıq etməklə Azərbaycan pandemiyaya qarşı qlobal miqyasda mübarizə işinə sanballı töhfə verir".

Hazırda dünya COVID-19-a qarşı vaksinləmə işlərinin həyata keçirilməsinə hazırlaşır. Vaksinləmə işlərində ayrı-seçkiliyin olmaması istiqamətində də vətənimiz örnək davranış nümayiş etdirir. Dövlət başçımız hər zaman bütün beynəlxalq forumlarda deyir ki, kifayət qədər maliyyə resurslarına malik olmayan ölkələrin də vaksinlərdən istifadə etmək imkanı inkişaf etmiş ölkələr kimi olsun, bu məsələdə ayrı-seçkilik olmasın.

Bəli, bir daha vurğulamaq yerinə düşər ki, Azərbaycan COVID-19 təhlükəsi ilə sadəcə ölkə daxilində deyil, həm də beynəlxalq müstəvidə uğurla mübarizə aparır. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin qlobal liderlik missiyası pandemiya ilə beynəlxalq mübarizəyə töhfə verir.

***Y.MUSAYEVA,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Birlik olanda zəfər də olur!

Dünya tarixi göstərir ki, ermənilər bir ölkədən digər ölkəyə köçərək, köçəri həyat tərzi sürmüşlər və bu köçəri erməni tayfalarının heç vaxt öz torpaqları və öz dövlətləri olmayıb, onlar müxtəlif ölkələrdə, əsasən də Şərq ölkələrində dağınıq şəkildə yaşamışlar və indi də yaşayırlar. Son 200 ilin dünya tarixi buna ən yaxşı əyani sübutdur. Bu mənfur və yaltaq tayfa, məkrli və hiyləgər tayfa indi bizimlə qonşu olmuşdur.

Halbuki son 200 il əvvələ qədər Qafqazda bu cür tayfalar mövcud olmamışdır. Onlar son 200 il ərzində böyük güclər tərəfindən, havadarları tərəfindən müəyyən məqsədlər üçün zaman-zaman Qafqaza, bizim torpaqlara köçürülmüşlər. Biz onlara öz torpaqlarımızdan zaman-zaman pay vermişik, onları ətrafımızda yerləşdirmişik, onlara yardım əli uzatmışıq, çörək-su vermişik, özümüzə dost bilmişik. Onlar bizim torpaqlarda rahat məskunlaşdılar və həm də gəlmə olduqlarını, yurdsuz-yuvasız olduqlarını ört-basdır etmək üçün hər zaman bizə qarşı düşmən kəsildilər, qənim kəsildilər.

Erməni tayfalarının nəinki öz torpağı, öz dövləti də olmamışdır. Onlar bizim mədəniyyətə göz dikdilər, onu mənimsəməyə, özününküləşdirməyə başladılar. Adət-ənənələrimzi, adlarımızı, mədəniyyətimizi, musiqimizi, mətbəximizi mənimsədilər. O qədər mənimsədilər ki, artıq onlara sahib çıxmağa, onlara sahib olmağa başladılar və bütün dünyaya "bunlar bizimdir" deməyə, bütün dünyanı aldatmağa başladılar. Əslində dünyanın əksər hissəsi, havadarları onların bu yalanlarını bilmiş və onlara sərf etdiyi üçün, onlar tərəfindən mükafatlandırıldığı üçün, bilərəkdən bu yalanlara nəinki göz yummuşlar, əksinə, onları daim buna şirnikləndirmişlər, sövq etmişlər və indi də sövq etməkdə, şirnikləndirməkdədirlər. Bu, onlara hegemonluqlarını saxlamaq üçün lazımdır.

1990-cı illərin əvvəllərində ermənilər havadarlarına arxalanaraq, respublikamızda hakimiyyət boşluğundan və əhalimizin əliyalın (silahsız) olmasından istifadə edərək, torpaqlarımızın 20 faizini işğal etdilər, orada yaşayan azərbaycanlı əhalini isə amansızcasına güllələbaran etdilər, onlara qarşı soyqırımlar törətdilər. İnsanlığın üzünü qara edən, ermənilərin bu hərəkətlərinə, amansız qəddarlıqlarına, görünməmiş vəhşiliklərinə və barbar talanlarına, dağıntılarına qarşı havadarları susdular, göz yumdular.

Belə bir şəraitdə yeganə düzgün yol müharibəni, onun törətdiyi dağıntıları dayandırmaq, işğal prosesini saxlamaq üçün düşmənlə atəşkəs haqqında müqavilə bağlamaq idi. Belə bir müqaviləni 1994-cü ildə ölkə prezidenti, dahi siyasətçi, Ümummilli Liderimiz Heydər Əliyev böyük uzaqgörənliklə bağlamağa nail oldu. Qazanılmış vaxtdan istifadə edib ölkənin iqtisadi potensialını və gücünü artırmaq, əsas diqqəti ordu quruculuğuna yönəltmək lazım idi. H.Əliyevin başladığı bu işi onun layiqli xələfi olan İlham Əliyev uğurla davam etdirməyə başladı. Torpaqlarımızın işğal edilməsindən artıq 30 il keçmişdir. Mənfur ermənilər havadarlarının əllərində alət və oyuncaq olaraq qalmaqdadırlar.

Bu illər ərzində torpaqlarımızın işğaldan azad edilməsi problemi dövlətimizin, xalqımızın qarşısında duran, bizim üçün həmişə aktual olan və hər an öz həllini gözləyən ən başlıca, ən əsas problem olmuşdur. Böyük dövlətlərin iştirakı və rəhbərliyilə bizimlə mənfur düşmən arasında gedən saysız-hesabsız sülh danışıqları heç bir nəticə vermədi, çünki bu danışıqlar həmişə imitasiya xarakteri daşımış və yalnız vaxtı uzatmaq məqsədini güdmüşdür. Düşmən hesab edirdi ki, əvvəlki dövrlərdə olduğu kimi, vaxt bizə torpaqlarımızın işğalını unutduracaq və biz gec-tez bu işğalla barışmalı olacağıq. Lakin Prezident İlham Əliyev hər zaman qeyd etmişdir ki, biz bu işğalla heç bir zaman barışmayacağıq və torpaqlarımızı sülh yolu ilə azad etmək mümkün olmazsa, hərbi yolla azad edəcəyik. Bununla bağlı Ali Baş Komandan İlham Əliyev tez-tez elan etmişdir ki, "Biz güclü dövlətik! Bizim güclü ordumuz var!"

Bu işğal azmış kimi, yırtıcı düşmən atəşkəs rejimini hər gün dəfələrlə pozurdu və ölkəmizi, bizi yeni torpaqlarımızı işğal etməklə hədələyirdi, ölkəmizə ara-sıra hücumlar da edirdi. Hər dəfə ordumuz tərəfindən düşmən susdurulurdu. Ölkəmiz üzərinə düşmənin son hücumu 27 sentyabr 2020-ci il tarixində baş verdi. Biz torpaqlarımızı işğal etmiş, zaman-zaman insanlarımızı qırmış, soydaşlarımıza insanlığa zidd olan, tüküpədici işgəncələr vermiş, insanlıqdan cox uzaq olan azğın düşmənin hücumunu dəf etməyə, onun vəhşiliklərinin qarşısını almağa məcbur olduq və aldıq da.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi və Şanlı Ordumuzun yenilməz şücaəti sayəsində 30 il müddətində torpaqlarımızı işğal altında saxlayan, şəhər və kəndlərimizi darmadağın etmiş, səfalı təbiətimizi ekoloji terrora məruz qoymuş bir düşmən əzildi, 44 gün ərzində torpaqlarımızdan qovuldu, ərazi bütövlüyümüz təmin edildi. Bu, dünya tarixində izi qalacaq, hətta ayrı-ayrı böyük dövlətlər tərəfindən öyrəniləcək, araşdırılacaq, təhlil olunacaq qədər böyük qələbədir. Bu, 21-ci əsr hərb tarixində yeni, ən müasir döyüş strategiyası yaratmış və yeni, cox maraqlı döyüş taktikaları ilə zəngin olan döyüşün zəferidir. Artıq dünyanın aparıcı hərbi ekspertləri bu barədə öz müsbət fikir və rəylərini söyləmişlər.

Bu qələbə bir də ona görə mümkün oldu ki, bütün xalqımız yaşından, milliyyətindən və dinindən asılı olmayaraq, bir yumruq kimi birləşdi, Ali Baş Komandanın və qəhrəman Ordumuzun arxasında dayandı. Bu qələbə Xalq, Prezident və Ordu üçlüyünün dəmir birliyinin təntənəli təcəssümü oldu. Bu qələbə Prezidentimizin dediyi sözlərin əyani sübutu oldu: "Biz birlikdə güclüyük!" Vahid məqsəd uğrunda bir olmaq, birləşmək öz müsbət bəhrəsini verdi.

Biz həm də ona görə qalib gəldik ki, bizim düşmənə qarşı apadığımız müharibə ədalətli müharibə idi. Biz öz torpaqlarımızı 30 illik düşmən tapdağından xilas edirdik. Döyüşlər və dağıntılar bizim torpaqlarda, ərazilərimizdə gedirdi. Düşmən işğalçı idi, haqsız idi, özgə torpaqlarına soxulmuşdu.

Bu Böyük Qələbə ilə yanaşı, dövlətimiz böyük humanistlik nümayiş etdirdi. Ermənistanın kapitulyasiyasından sonra mülki əhaliyə toxunmadı. Əvəzində isə biz düşməndən yerəgöyə sığışmayan vandallıq, misli görünməmiş vəhşilik gördük. Onlar boşaltdıqları kəndlərimizi, şəhərlərimizi, təbiətimizi viran etdilər, yandırıb külə döndərdilər. Rusiyanın ərazimizdə yerləşdirilən sülhməramlı hərbi dəstələri də buna mane ola bilmədilər. Ermənilər bu vəhsi hərəkətlərilə sübut etdilər ki, dünyanın ən barbar tayfalarıdırlar. Onların təbiətimizə vurduğu yaralar təkcə bizim yox, bütün dünyanın iqliminə, ekologiyasına dəyən zərbədir. Çünki indi dünya cox "kiçilmişdir" və Yer kürəsinin hər hansı məhəlləsində baş verən ekoloji terror dünya iqlimini korlamağa, bütün dünya iqlimində mənfi əks-səda verməyə qadirdir. Ən azı məhz buna görə bütün dünya erməni vandalizmini, erməni vəhşiliyini lənətləməli və onun hər cür təzahürünü boğmalıdır.

Bunlar ön cəbhədə baş verdi. Ön cəbhənin əsgər və zabitləri öz vəzifələrini müvəffəqiyyətlə, uğurla və layiqincə yerinə yetirdilər.

İndi dövlətimizin qarşısında işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və abadlıq işlərinin aparılması, kənd və şəhərlərimizin yenidən qurulması vəzifələri, köçkün əhalimizin öz yurd-yuvalarına dönməsini təmin etmək durur. İndi bu işlərin yerinə yetirilməsinə start verilmişdir.

Pandemiya ilə bağlı savaş da bir cəbhədir. Buradakı vəziyyət heç ürəkaçan deyil. Artıq bir ildir ki, bu dəhşətli pandemiya bütün dünyanı çənginə alıb və var gücü ilə tüğyan etməkdədir. Ölkəmizdə gündəlik yoluxmaların sayı artıq xeyli vaxtdır ki, 4000-ni, ölüm hallarının sayı isə 40-ı keçib. Bunlar bizim üçün böyük rəqəmlərdir. Bu qədər xəstə axınına tibb sistemimizin tab gətirməsi olduqca çətindir. Bundan başqa, həkimlərimizin vəziyyətini, bu bir il ərzində onların necə yorulub gücdən düşdüklərini, necə halsız qaldıqlarını da nəzərə alsaq, vəziyyətin cox ağır olduğunu təsəvvür edə bilərik. Hələ neçə-neçə həkimlərimizin COVID-19-un qurbanı olduğunu demirik. Tibb sistemimizin dayanıqlığını bərpa etmək üçün bu böhran vəziyyətindən mütləq çıxmağımız, həm də mümkün qədər tez çıxmağımız lazımdır. Bəs necə çıxaq?

Böhran vəziyyətini yaradan, ilk növbədə, məsuliyyətsiz insanlarımızdır. Onlar cox sadə, lakin cox zəruri olan karantin qaydalarına əməl etmədilər. Karantin qaydaları - maska taxmaq, məsafə saxlamaq və gigiyena qaydalarına əməl etmək hər birimizin gündəlik həyat tərzinin tərkib hissəsinə çevrilməlidir. Hər kəs karantin qaydalarına əməl etməlidir. Həm qapalı məkanda, həm də açıq havada! Yeri gəlmişkən deyim ki, bir cox insanlarımız belə düşünürlər ki, açıq havada olduqda virusa yoluxma baş vermir. Bu kökündən səhv fikirdir. Məgər virus açıq havada özünün yoluxdurucu xassəsindən əl çəkir? Əsla yox!

Hazırda nə qədər ki, əlimizdə koronavirusa qarşı vaksin yoxdur, böhran vəziyyətindən çıxmağın yeganə yolu məsuliyyətsiz insanların məsuliyyətli insanlarla bir yumruq şəklində sıx birləşməsindən ibarətdir. Bu cür birləşmə çox sadədir. Sadəcə hamı bir nəfər kimi, harada olur-olsun, necə olur-olsun mütləq maska taxmalı və məsafə saxlamalıdır. Sadəcə hər kəs karantin qaydalarına, tələb olunduğu kimi, ciddi və dəqiq əməl etməlidir və əməl etməyə də borcludur. Bu borc bizim dövlətimiz qarşısında, insanlarımız qarşısında, əhalinin sağlamlığını pozmamaq üçün onların qarşısında borcumuzdur. Bu, bizim vətənpərvərlik borcumuzdur.

Gəlin birləşək, ən azı vaksin ölkəmizdə tətbiq olunana qədər hər yerdə bir nəfər kimi karantin qaydalarına dəqiq riayət edək! Bununla arxa cəbhədə də qalib gələk! Birlik olanda zəfər də olur.

***Şakir NAĞIYEV,***
***AMEA Fizika İnstitutunun "Nüvə və yüksək enerjilər fizikası" laboratoriyasının rəhbəri, fizika-riyaziyyat elmləri doktoru, professor***

## Xəzər neftçisi əmək növbəsindədir

### Pandemiya ilə davamlı mübarizə sayəsində Neft Daşlarında iş ahəngdar davam edir, tapşırıqlar layiqincə yerinə yetirilir

**Koronavirus pandemiyasının hökm sürdüyü və sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu indiki dövrdə də Xəzər neftçiləri iş başındadırlar.**







Digər istehsalat sahələrindən fərqli olaraq dənizdə əmək növbələri saatlarla deyil, günlərlə davam edir. Bəs yaranmış mürəkkəb şəraitdə neftçilərimiz əmək növbələrinə necə gedib-gəlir, necə çalışır və onların gözəgörünməz, amansız düşmən - COVID-19-dan qorunması üçün hansı tədbirlər görülür? Çoxlarımızı maraqlandıran və qayğılandıran bu suallara əfsanəvi dəniz şəhərinin timsalında cavab tapdıq.

SOCAR-ın "Azneft" İstehsalat Birliyindən aldığımız məlumatda diqqəti ən çox çəkən məqam odur ki, dəniz neftçiləri işə gəlməzdən əvvəl bir sıra hotellərdə 7-8 gün müddətində xüsusi karantində qalırlar. "Neft Daşları" NQÇİ əməkçilərinin iş yerinə gəlişi 7 günlük karantin müddətindən sonra, onlardan iki dəfə COVID-19 test analizi götürülməklə həyata keçirilir. Birinci analiz hotellərə daxil olan gün, ikincisi isə karantin müddətinin yeddinci günü götürülür. Hər iki analiz nəticələri neqativ çıxan işçilər hotellərdən xüsusi ayrılmış avtobuslarla Pirallahı və Zabrat vertolyot meydançalarına və oradan vertolyotlarla, eyni qaydada Bakı Dəniz Vağzalından (zərurət olduqda Zığ limanından) gəmilərlə Neft Daşlarına gətirilirlər. Test analizi nəticələri müsbət çıxmış işçilər isə Təcili Tibbi Yardım briqadaları həkimlərinin müvafiq rəylərinə əsasən xəstəxanalara yerləşdirilir və ya evdə müalicələrini davam etdirirlər.

Ümumiyyətlə, Neft Daşları ərazisində COVID-19 pandemiyasının yayılmasının qarşısının vaxtında alınması üçün bütün zəruri profilaktik və təxirəsalınmaz tədbirlər görülüb. Sahələrin hamısında mütəmadi olaraq dezinfeksiya işləri həyata keçirilir və işçilər arasında maarifləndirmə söhbətləri aparılır.

İşçilər sahildən Neft Daşlarına və Neft Daşlarından sahilə qeyd edildiyi kimi, dəniz və hava nəqliyyatı ilə çatdırılır. Özüllərdə işləyənlərin gətirilib-aparılması, içməli suyun və ərzaq məhsullarının isə gəmilərlə yerinə çatdırılması təşkil edilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi tapşırıqlardan irəli gələn xüsusi (hazırda sərtləşdirilmiş) karantin rejimi qaydalarına əməl edilməsinin zəruriliyi mütəmadi olaraq işçilərin diqqətinə çatdırılır. Yoluxma hallarının qarşısının alınması məqsədilə neftçilərin istər hotellərə yerləşdirilməsi zamanı, istərsə də iş vaxtı bütün açıq və qapalı sahələrdə ara məsafəsini (1,5-2 metr) gözləməli olduqları onlara bir daha xatırladılır. Tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.), həmçinin infeksiya əleyhinə antiseptik və dezinfeksiyaedici vasitələrdən istifadənin vacibliyi mütəmadi olaraq qeyd edilir.

Koronavirus infeksiyası ilə mübarizə çərçivəsində "Neft Daşları" NQÇİ tərəfindən bir sıra əmrlər və tapşırıqlar verilib. Bu il pandemiya başlayandan dekabrın 10-dək NQÇİ üzrə kənar təşkilatlar da daxil olmaqla ümumilikdə 15120 nəfərdən COVID-19-a test analizi götürülüb. Hər ay təxminən 1700-1800 nəfərə yaxın işçi hotellərə yerləşdirilir ki, onlardan da həmin müddətdə 3500-ə yaxın test analizi götürülür.

İşçilər mütəmadi olaraq qoruyucu maska və əlcək, antiseptik maddələr, dispenserlər, antibakterial və maye sabunlar, spirt, nəm salfet və mikrob əleyhinə digər vasitələrlə təmin edilir. Ölkədə yoluxma hallarının artması ilə əlaqədar Neft Daşlarında pandemiya ilə mübarizə tədbirləri daha da gücləndirilib. Yoluxma mənbələrinin yaranmasına imkan verməmək üçün mütəmadi olaraq maşın-mexanizimlərlə qəsəbə, mədən ərazisindəki yollar dizinfeksiyaedici məhlullarla yuyulur, vertolyot və gəmi ilə gələn sərnişinlərin əl çantaları əraziyə texniki avadanlıqlar vasitəsilə qabaqlayıcı kimyəvi dezinfeksiya tədbirləri görüldükdən sonra buraxılır.

Bu tədbirlər ardıcıl olaraq yataqxanalarda, iş otaqlarında, istehsalat sahələrində, ictimai iaşə obyektlərində də aparılır. Bundan əlavə, "Ekol Mühəndislik Xidmətləri" QSC-nin dezinfektorları ilə adıçəkilən sahələrdə mütəmadi olaraq dezinfeksiya, dezinseksiya və deratizasiya tədbirləri həyata keçirilir.

"Azneft" İstehsalat Birliyində də qabaqlayıcı tədbirlər davam edir. Birliyin idarəetmə aparatında koronavirus epidemiyasının yayılmasının qarşısının vaxtında alınması, lazımi-zəruri profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə yaradılan fövqəladə əksepidemik qərargah tam gücü ilə fəaliyyət göstərir. Mövcud vəziyyət daim nəzarət altında saxlanılır.

Görülən davamlı tədbirlər sayəsində və güclü iradə ilə fədakar Xəzər neftçisi COVID-19-la mübarizədən qalibiyyətlə çıxacaq. "Neft Daşları" NQÇİ-nin ilin ötən 11 ayında qazandığı göstəricilər - neft və qazçıxarma tapşırıqlarını artıqlaması ilə yerinə yetirməsi təsdiqləyir ki, Azərbaycan neftçiləri hər cür ekstremal şəraitdə uğur, qələbə qazanmağa qadirdirlər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Lənkəranda karantin qaydaları ilə bağlı vəziyyət daim nəzarətdə saxlanılır

COVID-19-un yeni dalğasının pandemiya vəziyyətini daha da çətinləşdirməsi ciddi narahatlıq yaratdığından epidemiyanın qarşısının alınması üçün bütün dünya ciddi səylər göstərir, müxtəlif dərman preparatları, vaksinlər hazırlanır, bəzi ölkələrdə peyvəndlər edilir.



Bununla belə əldə olunan təcrübə göstərir ki, koronavirusdan qorunmaq üçün ən yaxşı üsullardan biri vaxtında və keyfiyyətli tibbi-mühafizə vasitələrindən düzgün istifadə, tələb olunan şərtlərə və gigiyenik qaydalara əməl etmək, maska taxmaq, sosial məsafəni gözləmək, nəhayət, bacardıqca özünü təcrid etməkdir.

Əhalini bu zəruri tədbirlərə cəlb etməkdən ötrü Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon ərazisində, o cümlədən şəhərin özündə müntəzəm olaraq tibbi-maarifləndirmə və izahat işləri aparılır, tibbi-profilaktik və inzibati tədbirlər həyata keçirilir. İlk növbədə, Nazirlər Kabineti yanında Operativ Qərargahın Lənkəran rayonu da daxil olmaqla elan etdiyi karantin qaydalarının sərtləşdirilməsindən sonra bu tədbirlərə diqqət daha da artırılıb. Şəhərin giriş və çıxışlarında postlar qurulub, SMS icazələr və şəxsiyyət vəsiqələri yoxlanılır, minik maşınlarında və ictimai nəqliyyatda sərnişin sıxlığına yol verilən halların qarşısı yerindəcə alınır, qaydaları pozan sürücülərə qarşı inzibati qaydada protokollar tərtib olunur. Sərnişin avtobuslarının gündəlik dezinfeksiya olunması təmin edilir. Fəaliyyəti müvəqqəti dayandırılan obyektlərdə, xidmət sahələrində, ictimai iaşə müəssisələrində və digər yerlərdə vəziyyət nəzarətdə saxlanılır.

Şəhər icra hakimiyyətinin məsul işçiləri başda olmaqla hüquq mühafizə orqanlarının nümayəndələrinin, mobil qrupların üzvlərinin və könüllülərin daxil edildiyi briqadalar tərəfindən rayon ərazisində reydlər keçirilir. Reydlər zamanı rayonda karantin qaydalarına əsasən əməl olunduğu müəyyənləşsə də, bəzi obyektlərdə pozuntulara da rast gəlinir. Qayda pozuntularına yol vermiş obyekt sahibləri barədə müvafiq aktlar tərtib edilərək qanunamüvafiq tədbirlər görülür. Qeyd etmək lazımdır ki, hər gün orta hesabla 300-ə yaxın reyd keçirilir. Məsələn, dekabrin 14-ü, 15-i və 16-da 902 reyd keçirilmiş, 399 nəfərə xəbərdarlıq edilərək izahat işləri aparılmış, 12 nəfər müvafiq qaydada cərimə olunmuşdur. Eyni zamanda apteklərdə maska, spirt və digər qoruyucu vasitələrin satışı, əhali tərəfindən istifadəsi, banklarda, marketlərdə, müxtəlif idarə və təşkilatlarda tibbi-qoruyucu vasitələrdən istifadə və sosial təmas məsafəsinin gözlənilməsi vəziyyəti də öyrənilərək müvafiq tövsiyələr verilib, lazımi tədbirlər görülüb.

Şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşovun, icra aparatı rəsmilərinin, yerli icra nümayəndələrinin, bələdiyyə sədrlərinin və əlaqədar təşkilatların rəhbərlərinin iştirakı ilə keçirilən onlayn müşavirədə bu barədə ətraflı söhbət aparılmış, yerlərdən operativ məlumatlar dinlənilmişdir. Müşavirədə çıxış edən icra başçısı rayonun sosial-iqtisadi inkişafı ilə bağlı qarşıda duran vəzifələrin icrası ilə yanası, əhalinin sağlamlıq durumu üçün ciddi təhlükəyə çevrilən koronavirus epidemiyasına qarşı barışmaz mübarizə tədbirlərinin həyata keçirilməsində və bu tədbirlərin gücləndirilməsində də bütün qüvvələrin səfərbər olunmasını bir daha tələb etmişdir.

***"Azərbaycan"***

## Karantin rejiminin tələblərini pozan vəzifəli şəxslər inzibati qaydada həbs edilib

*Koronavirus pandemiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.*

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vəzifəli şəxslər - Cahangirli Pərviz Vasif oğlunun və Kərimov Elçin Rafiq oğlunun "icaze.gov.az" portalına saxta məlumatlar daxil edərək ölkədə mövcud olan sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə vətəndaşların qanunsuz olaraq sərbəst hərəkətini təşkil etmələri faktı ilə bağlı materiallar toplanıb. Həmin materiallar əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanıb. Toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə Yasamal Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin müvafiq qərarları ilə hər iki şəxs barəsində inzibati həbs növündə tənbeh tədbiri tətbiq olunub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu xəbərdarlıq edir ki, xüsusi karantin rejimi qaydalarını pozmuş şəxslər barəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görüləcək.

## Azərbaycanda koronavirus infeksiyasından 4210 nəfər sağalıb, 3705 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 4210 nəfər müalicə olunaraq sağalıb, 3705 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 42 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 199 min 127 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 135 min 462 nəfər müalicə olunaraq sağalıb, 2175 nəfər vəfat edib. Aktiv xəstə sayı 61490 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 49 min 239 test aparılıb. Dünənki test sayı isə 17931-dir.




## Şabranda infeksiyaya yoluxan şəxs qaydaları pozaraq evini tərk edib

Şabran rayon sakini M.Zəkiyevə COVID-19 infeksiyası testinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin edilsə də, karantin qaydalarını pozaraq yaşayış yerini tərk edib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, polis şöbəsinin əməkdaşları tərəfindən qaydaları pozan və sakinlərin sağlamlığı üçün ciddi təhlükə yaradan M.Zəkiyevin törətdiyi qanunazidd hərəkətinin qarşısı dərhal alınıb. Həmin şəxs yaşadığı ünvana qaytarılıb və tam sağalanadək evdən çıxmaması barədə ciddi xəbərdarlıq edilib.

M.Zəkiyevin törətdiyi əmələ hüquqi qiymət verilməsi üçün Şabran RPŞ-nin İstintaq Bölməsində araşdırmalar aparılır.



# Cəbrayıl rayonu ərazisində polis postları qurulub və təhlükəsizliyə tam nəzarət edilir






Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş Cəbrayıl rayonunda təhlükəsizlik tədbirləri gücləndirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Cəbrayıl rayonunun ərazisində rayon polis şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xidməti fəaliyyətini davam etdirirlər. Rayon ərazisində postlar qurulub, təhlükəsizliyə tam nəzarət edilir.

# Naftalanda Vətən müharibəsi şəhidlərinin ailələri və qazilər evlərində ziyarət olunub

*Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Milli Məclisin deputatı Anar Məmmədov, "Tək Millət Tək Ürək" Beynəlxalq Humanitar qardaşlıq Platformasının Koordinatoru Faiq Qurbanov, Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri Birliyinin (TÜİB) sədr müavini Səlim Akbay idarə heyətinin üzvü Ender Kavuk ilə birlikdə şəhid və qazi ailələrini ziyarət etmişlər. Ziyarət zamanı ailələrə yardım bağlamaları təqdim olunmuş və uşaqlara müxtəlif oyuncaqlar paylanmışdır.*



Görüşlərdə şəhid ailələrinə, əlil və müharibə iştirakçılarına göstərilən dövlət dəstəyindən danışılmış, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 30 il davam edən münaqişəni 44 gün ərzində həll etdiyi, öz qanı və canı bahasına Vətən torpağının müdafiəsinə qalxanların, həmçinin onların ailələrinin daim dövlətin qayğısı ilə əhatə olunduqları vurğulanmışdır. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa dilənmişdir.

Türkiyəli qonaqlar həmçinin şəhid ailələrinin və qazilərin övladlarının gələcəkdə Türkiyədə oxumaq arzuları olarsa, təhsil və qalma xərclərini qarşılamağı təklif etmişlər. Belə bir istək olduğu təqdirdə bununla fəxr edəcəklərini demişlər.

Şəhid ailələri və müharibə iştirakçıları göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını ifadə etmişlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# "YAŞAT" yaralananlar və şəhid ailələrinin ehtiyaclarını qarşılamağa başlayıb

"YAŞAT" Fondunun əməkdaşları ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananların və şəhid ailələrinin yaşadıqları ünvanlara üz tutmaqla bərabər, bu kateqoriyadan olan şəxslərin ehtiyaclarını qarşılamağa da başlayıblar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, şəhid Fuad Haşımovun atası Haşımov Ceyhun Kamil oğlu 3-cü dəfə insult keçirdiyinə görə hazırda müalicə alır. Müddətindən asılı olaraq onun müalicə xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanacaq. Şəhid Şeydayev Rəfaelin anası Şeydayeva Cəmilə Saday qızı hazırda tənha yaşayır və xəstəliyi ilə əlaqədar müalicə olunmaq üçün müraciət edib. "YAŞAT" Fondu tərəfindən məsələyə baxılıb və müalicə xərcləri dövlət tərəfindən qarşılanacaq. Müalicə ilə əlaqədar yaranacaq digər xərcləri də fond öz öhdəsinə götürüb.

Yalnız fərdi qaydada deyil, irihəcmli yardımlar da gerçəkləşir. Səhiyyə Nazirliyinin Buzovnada yerləşən Reabilitasiya Mərkəzində müalicələri davam etdirilən və "RGO" ortopedik cihazına ehtiyacı olan 6 qazimiz üçün bu cihazlar xaricdən sifariş edilib.

Xatırladaq ki, fondun əməkdaşlarından ibarət 69 qrup zəruri planşetlərlə təmin olunub və bütün zəruri ehtiyaclar elektron qaydada qeydə alınır. "YAŞAT" Fondunun əməkdaşları şəhid ailələrinin üzvləri və qazilərimizdən təşkil olunublar. Fondun fəaliyyəti çərçivəsində müvafiq kateqoriyadan olan şəxslərin ehtiyaclarının müəyyənləşdirilməsi və qarşılanması prosesi davam edir.

# Yaponiyanın "Shugoku Shimbun" qəzetində ermənilərin Azərbaycan şəhərlərini viranə qoyması barədə məqalə dərc olunub

Yaponiyanın "Shugoku Shimbun" qəzetində 30 ilə yaxın bir müddətdə işğal altında saxlanılmış Azərbaycan şəhərlərinin və kəndlərinin ermənilər tərəfindən viran qoyulmasına dair məqalə dərc edilib.


夢見た帰還
故郷は廃虚に
アゼルバイジャン
ナゴルノカラバフ紛争終結1ヵ月ルポ
住民 歓喜と憎悪渦

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Qayıtmağı arzulasalar da, doğma şəhərlərini dağıdılmış vəziyyətdə gördülər" adlı məqalədə ötən əsrin 90-cı illərində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində Dağlıq Qarabağın və ətraf rayonların işğal olunmasından bəhs edilir. Cari il sentyabrın 27-dən noyabrın 10-dək davam etmiş müharibə nəticəsində Azərbaycan qoşunları tərəfindən azad edilən ərazilərə şəxsən səfər etdiyini bildirən müəllif Şinuci Haşimoto bu ərazilərdə böyük dağıntıların şahidi olmasından yazır. O, "ruhlar şəhəri" adını almış Ağdam və Fizuli rayonlarında evlərin və digər sosial obyektlərin yalnız divarlarının qaldığını bildirir. Müəllif tərəfindən təqdim edilən fotolarda dağıdılmış evlər, məscidlər, partlamamış raket aydın görünür.

Həmin rayonlara getmək üçün yola təqribən beş saat vaxt sərf etdiyini qeyd edən müəllif yolboyu əkin sahələrinin yerləşdiyini, bu sahələrin xüsusən pambıq əkini üçün səmərəli olduğunu bildirir. Vurğulayır ki, qarşılaşdığı yaşayış məskənlərinin hamısında ermənilər tərəfindən dağıdılmış obyektlərin, viranə qoyulmuş yaşayış məskənlərinin şahidi olub.

Yazıda müəllifin yerli sakinlərlə söhbətinə, onların doğma yurdlarına qayıtmaq üçün necə can atmasına, lakin geri döndükləri zaman xarabalığa çevrilmiş yaşayış məntəqələri ilə qarşılaşmalarına da xüsusi yer ayrılıb.

Məqalədə Azərbaycan Ordusunun cəmi 44 gün davam etmiş müharibə nəticəsində böyük əraziləri azad etməsinə də toxunulur. Qeyd edilir ki, Ermənistan ordusunun 30 il ərzində bu ərazilərdə qurduğu çətin keçilən istehkamlara baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri ciddi döyüş əzmi nümayiş etdirərək işğal altında olan torpaqların böyük bir hissəsini azad edə bilib. Daha üç rayonu - Ağdam, Kəlbəcər və Laçın rayonlarını Ermənistan ordusu üçtərəfli razılaşmaya müvafiq olaraq, döyüşsüz tərk edib.

# "Time" jurnalının yaydığı 2020-ci ilin seçilən 100 şəkli arasında Ermənistanın raket hücumu etdiyi Bərdədən çəkilən şəkil də yer alıb

ABŞ-ın "Time" jurnalı 2020-ci ilin seçilən 100 şəklini yayıb. AZƏRTAC xəbər verir ki, jurnalda Azərbaycanın Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin mülki şəxslərimizə hücumu nəticəsində Bərdə şəhərindən çəkilən şəkil də yer alıb.



Fuad Izmayilov's sister kisses his hand shortly after he was kille
in a rocket attack launched by Armenian forces on the city of

"Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərinə atdığı raket hücumu nəticəsində Fuad İsmayılov öləndən sonra bacısı onun əlindən öpür", - deyə şəkildə qeyd olunub.

## Şəhid ailələri və müharibə iştirakçılarının hüquq və imtiyazları barədə bütün suallara sosial.gov.az saytında cavab tapmaq olar

Postmüharibə dövründə aktual mövzulardan biri də şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın ailə üzvlərinin, müharibə əlilləri, veteranları və iştirakçılarının sosial təminat hüquqları, onlara göstərilən sosial dəstək tədbirləri ilə bağlıdır.

Bununla əlaqədar məlumatlılıq səviyyəsinin artırılması, xüsusilə həmin kateqoriyalardan olan vətəndaşların daha rahat şəkildə dolğun məlumatlara malik olması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında (sosial.gov.az) yeni "Şəhid ailələri və müharibə iştirakçılarına sosial dəstək" bölməsi yaradılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bölmədə şəhid ailələri, müharibə əlilləri, veteranları və iştirakçılarına müvafiq statusların verilməsi qaydası, onların malik olduqları imtiyaz və sosial təminat hüquqları, sosial vəziyyətlərinə uyğun olaraq göstərilən dəstək tədbirləri və s. barədə məlumatlar təqdim edilir. Bu hüquqların təminatı, sosial dəstək tədbirləri ilə əhatə olunmaq üçün prosedurlar da diqqətə çatdırılır.

# Şəhid anası: "Oğlumla fəxr edirəm, mənə şəhid anası adını qoyub getdi"

**Vətənimizin işğal altında olan torpaqlarını düşmən tapdağından azad edərkən şəhid olan qəhrəmanlarımızdan biri də qusarlı Elvin Qurbanovdur.**







AZƏRTAC xəbər verir ki, Elvin Qurbanov 1999-cu ildə Qusar rayonunun Balaqusar kəndində doğulub. Orta təhsilini rayonda yerləşən internat məktəbində alıb. Daha sonra kollecdə aşpazlıq ixtisası üzrə peşə təhsilinə yiyələnib. Hərbi xidmətini başa vurduqdan sonra Qusardakı restoranların birində aşpazlıq etməyə başlayıb. Xoş və mehriban xasiyyətinə görə hamı tərəfindən sevilən Elvin Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. "Elvin sentyabrın 21-dən təlimlərə cəlb olundu. Müharibə başlayanda isə ön cəbhəyə yollandı. Oktyabrın 14-ü qəhrəmancasına döyüşərək şəhid olub. Sonuncu dəfə danışanda dedi ki, ana, heç nədən narahat olma, özünə yaxşı bax. Hərbi xidmət dövründə də ön cəbhədə səngərdə xidmət edib. Mən oğlumla fəxr edirəm. Mənə şəhid anası adını qoyub getdi. O adla mən çox qürur duyuram", - deyə şəhidin anası Nabat Əlisoltanova söyləyib.

Elvin Cəbrayıl və Füzulinin yaşayış məntəqələrinin azad olunmasında fəal iştirak edib. Füzuli şəhəri uğrunda gedən şiddətli döyüşdə artilleriya mərmisinin yaxınlığında partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Babası İsaməddin və nənəsi Nübarxanım nəvələrinin Vətən, torpaq yolunda şəhid olması ilə qürur duyduqlarını bildiriblər.

"Bir il dörd ay idi əsgərlikdən gəlmişdi. Sentyabrda hərbi komissarlıqdan çağırış gəldi. Təlimlərdən sonra müharibəyə yollandı. Telefonla danışırdıq. Hərdən də zəng çatmırdı. Ona zəng çatmayanda Elvini anasından soruşurdum. Özü ilə danışanda deyirdi ki, arxayın ol nənə, biz yaxşıyıq. Sonra beş gün danışa bilmədik. Məlum oldu ki, Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Mən Prezidentimizə minnətdaram ki, öz ata nəsihətini yerinə yetirib torpaqlarımızı işğaldan azad etdi", - deyə şəhidin nənəsi vurğulayıb.

Həyat yoldaşı Birinci Qarabağ müharibəsində şəhid olan Sevdaxanım Sultanova Elvinin anasına təsəlli verən ən yaxın rəfiqələrindəndir: "Biz bir ailə kimiyik. Mən Elvinə doğma xalası qədər yaxınam. Bizim şəhidlərimizin hamısı Vətən yolunda canlarından keçib. Elvin gəncliyini, həyatını yaşamadı, amma Vətən borcunu yerinə yetirdi. Onlar bizə qələbə sevincini yaşatdılar".

Elvin Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qəhrəmanlıqla döyüşdüyünə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

# Sən Azadlığa, biz Zəfərə qovuşduq, Qarabağ!

**Gözün aydın, Qarabağ, qəzan mübarək, Vətən! Sən azadlığa qovuşdun, Qarabağ! Vətənimiz bütövləşdi. Biz isə təşnəsi olduğumuz parlaq bir zəfərə yetişdik. 30 ildən bəri bu günü gözləyirdi ulu millətim.**

Mənfur düşmənlərimizin, nankor qonşularımızın qan qoxulu xəyanətləri ilə doğma yurdundan, isti ocağından perik salınaraq öz vətənində məcburi köçkünə çevrilib ağır məşəqqətlərə qatlaşan, çadırlarda, vaqonlarda cəhənnəm əzabı yaşayan soydaşlarımızın böyük qayıdışa olan ümidi heç zaman sozalmadı, öləzimədi.

Yaman günün ömrü az olar deyib babalarımız. Amma bizim yaman günümüzün ömrü çox uzun oldu, aylar illərə calandı, qələbə sorağıyla gözlər yollara dikildi, qulaqlar xoş bir xəbərə tamarzı qaldı...

30 ildir bu günə yol gəlirdik. Gözümüzdəki intiqam hissi hər an ildırım kimi çaxmağa, düyünlənmiş dəmir yumruğumuz düşmənin başına endirilməyə hər an hazır vəziyyətdə idi.

Qələbələrlə müşayiət olunan 44 günlük bu zəfər yolunun son dayanacağı bayram libaslı Bakımızın Azadlıq meydanı oldu! Bu tarixi məkan bəlkə də yaranışından üzü bəri heç vaxt belə möhtəşəm olmamışdı.

Müzəffər Ali Baş Komandanın əmri ilə Qarabağ uğrunda müqəddəs savaşa atılan Azərbaycan əsgəri bütün dünyanı heyran qoyan şanlı bir tarix yazdı. Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunan 44 günlük Vətən müharibəsinin hər anı, hər saatı gerçək bir qəhrəmanlıq səhifəsidir.

*Neçə oğlun can verib uğrunda qurban oldu,*
*Şəhid qanı tökülən torpaq gülüstan oldu,*
*Qazandığın qələbə dillərdə dastan oldu.*
*Sən mənə candan əziz sevgili cansan, Qarabağ!*
*Doğmadan doğma olan Azərbaycansan, Qarabağ!*

Həmin gün bütün dünyanın nəzəri Bakıya dikilmişdi. Qalib ordumuzun QƏLƏBƏ paradını bütün qitələrin yüz milyonlarla insanı izlədi. Təbii ki, gördükləri möhtəşəm mənzərə, qəhrəman əsgər və zabitlərimizin nümunəvi hərbi keçidi, müasir döyüş texnikalarının nümayişi, hərbi təyyarə və helikopterlərin bayram uçuşları dost ölkələrin vətəndaşlarını da qürurlandırdı. Erməni separatizmini dəstəkləyənlərin, işğalçıya arxa duranların isə heç şübhəsiz ürəklərindən qara qanlar axdı.

Qələbə sevincini yaşamaq nə böyük xoşbəxtlikdir, ilahi! Vətən sevdalı insanların ürəyindən keçən duyğuları sözlə tərənnüm etmək mümkün deyil. Sadəcə elə-obaya qarışıb o hissləri yaşamaq, Qələbənin dadını çıxarmaq lazımdır.

Milyonların oxuduğu bir nəğmənin nəqarəti QƏLƏBƏ!

Yurd həsrətli, buz nisgilli ürəklərin hərarəti QƏLƏBƏ!

Son baharda çiçək açan güllərimin təravəti QƏLƏBƏ!

Yaşa, Ali Baş Komandan! Var ol, qəhrəman Əsgər! Sevin, Azərbaycanım, sənə şadlıq yaraşır!

***Lazım QULİYEV, "Azərbaycan"***

# Bir ömrə bərabər 7 gün

**İkinci Qarabağ müharibəsində Kamal Hüseynovun bəxtinə cəmi 7 gün döyüşmək nəsib olub.**





Çoxdurmu, azdırmı?

Yəqin bununla razılaşanlar tapılar ki, kimin bəxtinə nə qədər ömür sürmək heç kəsin özündən asılı olmadığı kimi, müharibədə də düşmənə qarşı nə qədər döyüşmək alın yazısıdır.

Elə sağ qalıb-qalmamaq da...

AZƏRTAC-ın məlumatına görə, Kamal Hüseynov sentyabrın 21-da hərbi xidmətə çağırılıb. Sentyabrın 27-də Füzuli rayonunun Horadiz kəndində ilk döyüşə, oktyabrın 2-də isə Aşağı Əbdürrəhmanlı kəndində ikinci döyüşə girib. İlk döyüşdə əlindən yüngül yara alıb, ikinci döyüşdə isə...

...Erməni hərbi birləşmələrinin yaraqlıları yeraltı bunkerə çəkilib Milli Orduya qarşı müqavimət göstərirdilər. Onlar bunkerdə gizlənərək əsgərlərimizin mövqeyinə doğru ən müxtəlif silahlardan, minomyot və toplardan atəş açır, illərdən bəri keçilməz sədd kimi düzəltdikləri səngərdən geri çəkilmək istəmirdilər. Quldurların atdığı növbəti atəşin hədəflərindən biri də Kamal olur. Güllə onun sinəsini nişangaha çevirərək kürəyindən çıxır. Döyüşçü yoldaşları onu atəş altından çıxararaq hospitala göndərirlər.

Bir neçə gün Füzuli Rayon Mərkəzi Xəstəxanasında, daha sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalında, Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasında müalicə olunub. Həkimlər Kamalın üzərində cərrahi əməliyyat apararaq onu yenidən həyata qaytarıblar. Həkim və tibb işçilərinin göstərdiyi birgə səylər nəticəsində sağalaraq ayağa qalxıb.

Artıq Kamal bir neçə gündür ki, çalışdığı "Kontakt Home" şirkətində işə çıxır, kredit mütəxəssisi kimi fəaliyyətini davam etdirir.

Döyüş yolunun qısa olmasından təəssüflənirmi?

Əlbəttə, təəssüflənir...

Anasının dünyaya göz açdığı Qorqan kəndinə döyüşçü kimi qədəm basa bilmədiyinə, Füzuliyə sancılan bayrağı canlı şahid kimi öz gözləri ilə görmədiyinə görə... Bunu etmək, bu möhtəşəm hadisənin canlı şahidi olmaq Kamalın qismətində yox imiş. Əvəzində həmin sevincli günü yaşamaq onun döyüş yoldaşlarına qismət olub.

Müharibə çox amansızdır. Onun amansızlığı təkcə qətlinə fərman verdiyi nakam və yarımçıq talelər, yarımcan, şikəst etdiyi insan ömürləri, viran qoyduğu həyat deyil, həm də beşikdəcə boğduğu arzulardır.

Vətən, torpaq, yurd istəkli arzular...

Bu gün Qarabağ qazisi Kamal Hüseynov həm də ona görə təəssüflənir ki, onunla bir səngərdə döyüşən Muxtar Qasımlı, Afiq Qulamlı və Vahid Abbasov xalqımızın Vətən müharibəsindəki Qələbə sevincini, doğma yurda qovuşmaq xoşbəxtliyini yaşaya bilmədilər. Bu çətin və ağır sınaq günlərində çoxlu etibarlı dostlar tapdığına isə çox sevinir. Onlardan biri sumqayıtlı Elnur qızğın döyüş getdiyi vaxtda öz həyatını təhlükə qarşısında qoyaraq yaralı vəziyyətdə olan Kamalı hadisə yerindən uzaqlaşdırıb.

Döyüş yolunun uzunu, qısası olmur. Bu yol səngərə girdiyin ilk gündə, irəli atıldığın ilk döyüşdə də qırıla bilər, sonuncu günədək uzana da... Əsas odur ki, həmin səhnəni yaşayan hər kəs hər şeyə başqa cür baxır, dünyaya, həyata, insanlara münasibəti dəyişir. Vətən müharibəsinin iştirakçısı olan Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunu 26 yaşlı Kamal Hüseynov da indi xeyli dəyişib. Şahidi olduğu hadisələr, Milli Ordu əsgərlərinin cəsurluq nümunəsi, düşmənin ölümsaçan atəşləri üstünə dik yeriyən oğullar və bütün bunların sayəsində xalqımızın tarixi torpaqlarına qovuşması elə bil onu öz yaşından xeyli böyük edib.

Altı həftə davam edən Vətən müharibəsində xalqımızın qazandığı tarixi Zəfər Bakının Lökbatan qəsəbəsində yaşayan Hüseynovlar ailəsinin də böyük sevincinə səbəb olub. Atası Elçin, anası Mərcan, qardaşı Elvin, ömür-gün yoldaşı Xədicə bu möhtəşəm Qələbənin qazanılmasında Kamalın zərrə qədər də əməyi olduğuna görə qürur duyur və sevinirlər.

Həm də hələ təzə-təzə danışmağa başlayan Selcanın dilində "ata" kəlməsi donmadığına görə...

# Bol sərvətli Kəlbəcər

## Saf ürəkli, zəhmətkeş övladların sənin qoynuna tələsir

Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistan üzərində tarixi qələbə qazandı. İşğal altında olan torpaqlarımız azad edildi. Bu gün düşmən ölkədə acı məğlubiyyətdən doğan isterika bütün cəmiyyəti sarsıdıb. İndi ermənilər düşdükləri çətin durumdan çıxmağa çalışırlar. Ancaq bu ölkədə olan siyasi elitanın verdiyi bəyanatlardan aydın görünür ki, doğru yolu tapa bilmirlər. Çünki onlar yeni müharibəyə başlayıb itirdikləri torpaqları geri almaq düşüncəsindən hələ də əl çəkməyiblər.





Görünən odur ki, erməni siyasətçiləri qarşıda onları gözləyən daha böyük bəlanın - sosial və iqtisadi fəlakətin miqyasını təsəvvür edə bilmirlər. Bu fəlakətin qarşısı vaxtında alınmazsa, Ermənistanı aclıq və səfalət bürüyəcək. Tezliklə orada Afrikanın bəzi ölkələrindəki mənzərənin şahidi olacağıq. Ona görə ki, illərdir Ermənistan iqtisadiyyatını çətin də olsa ayaqda saxlayan Azərbaycanın işğal olunan ərazilərində sərvətlərin talanması idi. Təsadüfi deyil ki, Ermənistan öz dövlət büdcəsinin 50 faizini işğal etdiyi ərazilərdəki sərvətlərin talanı hesabına formalaşdırırdı. Erməni əsgərlərinin Kəlbəcərin Söyüdlü-Zod qızıl yatağına nəzarəti əldə saxlamaq kimi mənasız cəhdi də bununla bağlıdır. Həmin yatağın itirilməsinin iqtisadi faciə olduğunu bildikləri üçün bu əmələ əl atırlar. Lakin onlara bu yatağı yenidən istismar etmək imkanı verilməyəcək. Zəngilandakı Vecnəli qızıl yatağının itirilməsindən sonra onların yeganə ümidi Söyüdlü yatağıdır. İndi bu son ümid də ölür.

Kəlbəcər haqqında yazan həmkarlarımız bu regionun təbii sərvətlərinə və iqtisadi imkanlarına daha çox diqqət yetirirlər. Rayonun ölkəmizin iqtisadiyyatına verəcəyi töhfədən yenə yazılacaq. Ancaq kəlbəcərlilər bizim üçün bütün təbii sərvətlərdən qiymətlidir. Bu yerin havası və suyu onlara saflıq bəxş edib. Kəlbəcərin mərd və qorxmaz sakinləri birinci Qarabağ savaşında yalın əllə, ov tüfəngi ilə təpədən-dırnağa silahlanmış ermənilərə qarşı döyüşüblər. Qeyrətli qız-gəlinləri isə alçaq düşmənə əsir düşməməkdən ötrü özlərini qayalardan dərin yarğanlara atıblar ki, namusları ləkələnməsin. Bizim aləmimizdə kəlbəcərlilərin ən böyük dəyəri də budur.

Dəlidağdan, buranın saf su və havasından ilham alan Dədə Şəmşirin avazı, sözü və izi qalıb Kəlbəcərdə. Dədə Şəmşir o aşıqlardandır ki, sazı-sözü ilə Dədə Qorquddan bu yana gələn el sənətini daha yüksək zirvəyə qaldırıb. XX əsr Azərbaycan poeziyasının korifeyi olan Səməd Vurğun onunla deyişib. Bu böyük şair Dədə Ələsgərin qiymətini yaxşı bilib. Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini sovet dövründə alimlərimiz Kəlbəcərdən toplayıb qələmə alırdılar. Çünki bu ədəbiyyat ümumilikdə Azərbaycan xalqının yaşı yüz illərlə ölçülən söz sənətini və ruhunu özündə daşıyır.

Allah bu diyardan heç nəyi əsirgəməyib. Qeyd etdiyimiz kimi, özəl insanları ilə yanaşı, rayon zəngin sərvətlərə də malikdir. Rayonda bitən 4 min bitkinin 200 növü dərman bitkisidir. Bu, ölkəmizdə təbii dərman istehsalına geniş imkanlar açacaq. Bununla yanaşı, Kəlbəcərdə 76 növ mineral, 36 suxur növü olduğu təsdiqlənib. Onlar sovet dövründə texniki imkanların az olduğu vaxtlarda kəşf edilib. Bu üzdən müasir geoloji avadanlıqlarla kəşfiyyat aparıldıqda yeni yataqların aşkar ediləcəyi də şübhəsizdir. İndiyədək geoloqlar tərəfindən Kəlbəcərdə qızıl, gümüş, mis, xrom, civə, tellur, selen yataqları aşkarlanıb. Buradakı sənaye əhəmiyyətli Söyüdlü, Ağduzdağ və Qızılbulaq qızıl, Şorbulaq və Ağyataq civə və Mehmanə polimetal yataqları xüsusi əhəmiyyətə malikdir. Rayon ərazisində həmçinin böyük ehtiyatları olan əlvan və üzlük daş, eləcə də müxtəlif növ inşaat materialları yataqları mövcuddur.

Bu ərazilərdə insanların məskunlaşmasının tarixi qədimdir. Kəlbəcərdə yaşayan insanlar 4-5 min il bundan əvvəl qızıl emalı ilə məşğul olublar. Bu, Söyüdlü qızıl yatağında ötən əsrin 70-80-ci illərində aparılan geoloji-kəşfiyyat işləri zamanı aşkar edilib. Belə ki, həmin ərazidə 4-5 min il bundan öncə qızıl istehsal edən alətlər tapılıb. Onu da qeyd edək ki, ermənilər işğal müddətində Kəlbəcərin sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan Söyüdlü və ehtiyatları 13 tondan çox olan Ağduzdağ, Tutxun qızıl yataqlarını vəhşicəsinə istismar ediblər. Eyni zamanda düşmən dünyaca məşhur olan "İstisu"yu başqa ad altında xarici bazarlara ixrac etməklə çoxlu sərvət əldə edib.

İndi bunlar keçmişdə qaldı. Kəlbəcərin zənginlikləri ilk növbədə buraya qayıdıb gələn övladlarına xidmət edəcək. Eyni zamanda rayonun sərvəti, o cümlədən suyu ölkəmizin iqtisadi potensialının daha da artmasına töhfə verəcək.

Su həyatdır. Azərbaycanın bir neçə böyük çayının mənbəyi Kəlbəcərdə formalaşır. Onların arasında ən böyüyü uzunluğu 200 kilometr olan Tərtər çayıdır. Bazarçay və Xaçınçayın uzunluğu da təxminən 200 kilometrə yaxındır. Həmin çaylar ölkəmizin böyük ərazilərinin suvarılmasında mühüm rol oynayıb. İşğal dövründə Kəlbəcərdən başlanan Tərtər çayının suyu Sərsəng və ondan sonra Suqovuşan su anbarlarında yığılırdı. Təkcə Suqovuşan su anbarı azad edildikdən sonra 100 min hektara içməli və suvarma suyunun verilməsi imkanı yaranıb. Həmin ərazilər işğal altında olan dövrdə ermənilər Dağlıq Qarabağ ətrafındakı rayonların sudan istifadəsinə imkan vermirdi. Bu üzdən də həmin rayonlarda yüksək məhsuldarlığın əldə edilməsində problemlər yaşanırdı.

Kəlbəcər yaylaqları da xüsusi əhəmiyyətə malikdir. Həmin yaylaqlardan təkcə kəlbəcərlilər istifadə etmirdi, ətraf rayonların da qoyunçuluq təsərrüfatları yay aylarında sürülərini burada bəsləyirdi. Ölkəmizin ət və süd məhsullarına olan tələbatının ödənilməsində Kəlbəcərin xüsusi yeri vardı. Ermənistanın sabiq kənd təsərrüfatı naziri Artur Xaçaturyan deyir: "Kəlbəcərdə heyvandarlıq inkişaf etmişdir. Bu torpaqların itirilməsi Ermənistan üçün ət və süd məhsullarının itirlməsi deməkdir".

Sabiq nazir həmçinin qeyd edib ki, Azərbaycanın işğal altında olan ərazilərində ildə 150 min ton taxıl tədarük olunurdu. Beləliklə, indi taxıl istehsalının 25 faizindən məhrum olublar. Bu ölkə ehtiyacını ödəmək üçün hər il xaricdən 250 min ton taxıl idxal edirdi. İndi bu rəqəmin üzərinə 150 min ton da əlavə olunacaq. A.Xaçaturyan həyəcan siqnalı çalaraq hökuməti xəbərdar edir ki, Ermənistanı qarşıda aclıq təhlükəsi gözləyir.

Ermənistan mövcud imkanlarından faydalanıb iqtisadiyyatını inkişaf etdirmək əvəzinə ehtiyaclarını Azərbaycanın təbii sərvətlərini talamaq hesabına ödəmək kimi yanlış bir yol tutdu. Ermənilər gərək azərbaycanlıların "Özgə atına minən tez düşər" atalar sözünü unutmayaydılar. Unutduqları üçün də indi cəzalarını çəkirlər. Yəqin ki, ara sakitləşəndən sonra ermənilər yenə də kəlbəcərlilərin qapısında işləyib evlərinə çörək pulu aparmaq istəyəcəklər, təbii ki, kandara buraxılsalar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Felyeton

# Gen qazdı, dərin qazdı, özü düşdü

El arasında belə bir söz var: "Gen qaz, dərin qaz, axırda özün düşəcəksən". Birisi digərinə hiylə, kələk gəlmək istəyəndə işlədilir bu ifadə. Elə bil bədnam qonşularımızın əməlinə, xislətinə biçilib bu kəlam. Ermənilər əsrlərdir ki, Azərbaycana, qardaş Türkiyəyə qarşı təxribatçı əməllərə əl atmaqda davam edirlər. Onlar xəstə təxəyyülləri ilə "dənizdən dənizə böyük Ermənistan" xülyası ilə hər cür riyakarlıqdan, çirkin əməllərdən, qarayaxmalardan əl çəkmirlər. Guya əzildikləri, soyqırımına məruz qaldıqları barədə qoltuğuna sığındıqları ölkələrin parlamentlərində, senatlarında haray-həşir qopararaq imdad diləyənlər, tərtib etdikləri saxta xəritələrdə Qarabağın onlara mənsub olduğunu qəbul etdirmək üçün dəridən-qabıqdan çıxanlar bundan ötrü hiyləgərliklə pusquda durub məqam gözləyiblər. Tarixin müəyyən dönəmlərində istədiklərinə nail olublar da.

Keçən əsrin 80-ci illərində keçmiş SSRİ-də dövlət hakimiyyətinin başına keçən M.Qorbaçovun siyasi səbatsızlığından, satqınlığından məharətlə istifadə etdilər və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi kimi ağlasığmaz bir məsələni ortaya atdılar. Birinci Qarabağ müharibəsi başlandı. Çayır kimi dünyanın hər yerinə yayılan və oralarda kök atan erməni diasporu bəzi xoşqeyrət avropalı deputatların, hökumət və dövlət nümayəndələrinin, siyasətçilərin, pula görə şəxsiyyətini satan jurnalistlərin başını "bişirdilər", onların ağa qara deməyinə nail oldular. Bu binəvalar da oturublar Avropada, heç nədən xəbərləri yoxdur, elə zənn edirlər ki, dünyanın çarxını fırladan onlardır, ona görə də adlarını "demokrat" qoyaraq istədiklərini edə bilərlər. Amma yanılırlar. Unudurlar ki, haqq incələr, lakin üzülməz. Gün gəlir, qarşılarına bir oğul çıxır və həqiqəti şillə kimi çırpır belələrinin üzünə, deyir: "Cənablar, xanımlar, bir əvvəl güzgüdə özünüzə baxın, sonra bizə demokratiya dərsi keçin".

Ötən əsrin sonlarında ermənilərin Azərbaycana qarşı başladıqları torpaq, ərazi iddiaları 32 ilə yaxın bir dövr ərzində xalqımıza ağır həyat, soyqırımı, qaçqınlıq yaşatsa da, sonda onların özlərinin acı məğlubiyyəti ilə başa çatdı. Buna kimi bədnam qonşularımız işğal etdikləri rayonlarımızın şəhər, qəsəbə və kəndlərini xarabazara çevirdilər. Evləri, tarixi-mədəni abidələri, məscidləri viran etdilər. Xalqımızın izlərini silməyə çalışaraq abidələri ya dağıtdılar, ya Ermənistana daşıdılar, ya da öz xeyirlərinə saxtalaşdırdılar. Yeraltı, yerüstü sərvətlərimizi talayıb apardıqları azmış kimi, goreşən cildinə girib, qızıl diş axtarışı ilə qəbirləri bərbad hala saldılar.

Qısası, ermənilər ötən müddət ərzində Qarabağda daşı daş üstünə qoymayıblar. Belə bir məsəl var: "Çarığı it aparar, çarıqsız da it qalar". Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz onları torpaqlarımızdan iti qovan kimi qovub çıxartdı. Özünü qalib, yenilməz hesab edən Ermənistan ordusu dabanına tüpürüb üzü İrəvana doğru qaçdı. Şuşanın alındığını görən N. Paşinyan yenidən onun-bunun ayağına düşməyə başladı. Bir dövlətin başçısından dəstək görməyəndə digərinə yalvardı. Onlardan erməni xislətini, hiylə və yaltaqlığını başa düşənlər də oldu ki, başa düşməyənlər də. Başa düşənlər bir daha bildilər ki, bir ağacda oturub min budağı silkələmək ermənilərin qanındadır. Bu məqsədlə bədnam qonşularımız İkinci Qarabağ müharibəsinə üçüncü dövlətləri cəlb etmək üçün hər cür pis əməllərə əl atırdılar. Rusiya ilə Türkiyəni qarşı-qarşıya qoymağa çalışırdılar. Lakin onların bu niyyətləri ürəklərində qaldı. Hər iki dövlətin başçısı haqq-ədalət, barış, sülh tərəfdarı olduqlarını, Cənubi Qafqazda sabitliyin yaranmasını istədiklərini göstərdilər. Çapalamaqda olan Paşinyanın üz tutduğu, imdad dilədiyi Fransa Prezidenti İ.Makron da Ermənistanın işinə yaraya bilmədi.

Müharibə Qələbəmizlə başa çatdı. Bu münasibətlə dekabrın 10-da Azadlıq meydanında Zəfər paradı keçirildi. Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş ölkənin nümayəndə heyəti iştirak etdi. Xalqımız Zəfər paradını böyük sevinc və qürur hissi ilə izlədi. Bundan sonra hər il 8 Noyabr - Zəfər Günü kimi qeyd olunacaq. Xalqımız şəhidlik zirvəsinə yüksələn oğullarımızı dərin ehtiramla həmişə yad edəcək.

Ermənistan isə məğlub ölkədir. İndi burada ara qarışıb, məzhəb itib. Məğlubiyyətlərinin səbəbkarı kimi hamı Nikolu xain deyə çağıraraq istefasını tələb edir. Amma unudurlar ki, Nikoldan da zəhərliləri pərdə arxasında daldalanıblar. Əgər R.Köçəryan, S.Sarkisyan və digər erməni şovinistləri, həmçinin Azərbaycanın çörəyini yedikləri halda separatçılıq edən ermənilər vaxtında papaqlarını qarşılarına qoyub fikirləşsəydilər, aqibətləri belə olmazdı. Necə deyərlər, Allah adamın əvvəl ağlını, sonra canını alır. Əfsuslar olsun ki, ermənilərin əksəriyyəti (az sayda ermənini nəzərə almasaq) bir toplum olaraq (xalq deməyək, onların xalq olmağına çox qalıb) düşdükləri vəziyyəti, bunun səbəbini yenə də düzgün qiymətləndirə bilmir, yuvarlandıqları girdabda çapalaya-çapalaya əl-qol atırlar. Hələ də anlamırlar ki, özgə üçün qazdıqları quyuya özləri düşüblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirova anası

**XAVƏR NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Şəhər Məhkəməsinin kollektivi məhkəmənin hakimi Ziya Əliyevə anası

**ROZA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## ABŞ Moderna vaksininin istifadəsini təsdiqlədi

ABŞ-da Moderna şirkətinin yeni tipli koronavirusa qarşı hazırladığı peyvəndin istifadəsinə icazə verildi.

Müvafiq qərar ABŞ-ın Qida və Dərman Vasitələrinin Keyfiyyətinə Sanitariya Nəzarəti İdarəsində (FDA) qəbul edilib.

Bundan əvvəl BioNTech və Pfizer şirkətlərinin peyvəndi də analoji təsdiq alıb.

Məlumata görə, vaksinin səmərəliliyi 94,1 faiz təşkil edir.18 yaşdan yuxarı olan insanların peyvəndlənməsi üçün istifadə oluna bilər.

Bazar günü 5,9 milyon doza paylanacaq.

"Təbrik edirəm, Moderna vaksini artıq əlçatandır!" deyə ABŞ Prezidenti Donald Tramp Twitterdə yazıb.

# Beynəlxalq aləm

## Alimlər qocalmaya səbəb olan vərdişləri açıqladılar

Yaşlanma qaçılmazdır, amma bir sıra vərdişlərdən imtina etsəniz, bu proses ləngiyə bilər. Oslo Universitetinin alimləri belə hesab edirlər. Bu barədə "MedikForum" nəşri yazır.

Mütəxəssislər aydınlaşdırıblar ki, siqaret çəkmə, qeyri-aktiv həyat tərzi, pis qidalanma və spirtli içkilərdən sui-istifadə xronobioloji yaşa 12 il əlavə edir. Alimlərin dediyinə görə, bu fenomen bihevioral yaşlanma adlanır.

Ekspertlər bu cür nəticələrə 18 yaşdan 44-ə qədər olan məlumatları araşdırdıqdan sonra gəlmişlər. Onların sağlamlığı 20 il ərzində izlənilmişdir. Əksəriyyətində bir və ya iki neqativ vərdiş olub, 314 nəfər bütün dörd zərərli vərdişlərə malik idi, 387 nəfər isə heç bir vərdişdən sui-istifadə etməmişdi. Nəticədə, sonuncular öz yaşlarından, eləcə də digər qruplardan olan şəxslərdən əhəmiyyətli dərəcədə gənc görünüblər.

## Əfqanıstanda terror aktı: 15 ölü, 20 yaralı

Dünən Əfqanıstanın mərkəzi hissəsində yerləşən Qəzni vilalətində baş vermiş terror aktı nəticəsində 15 dinc sakin həlak olub, daha 20 nəfər yaralanıb.

Əfqanıstan DİN-in mətbuat katibi Tarık Aryen jurnalistlərə açıqlamasında bildirib ki, partlayış Göylan qəzasının Ağucan kəndində baş verib.

Terroristlər dini mərasim zamanı minalanmış üçtəkərli motosikleti partladıblar.

Terror aktına görə məsuliyyəti hələlik heç bir qruplaşma öz üzərinə götürməyib.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 7368**
**Sifariş 2857**
**Qiymәti 40 qəpik**